QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 213 (5933) **19 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## İlham Əliyev: "Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir"

*Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib*



Səh 2

6

Əli Kərimli və radikal ətrafı bəraət axtarışında



7

"Naxçıvanın inkişafı və təhlükəsizliyi dövlət başçısının diqqət mərkəzindədir"



7

Bir illik cəbhə hakimiyyəti fiqurlarının fəaliyyəti beynəlxalq müzakirə müstəvisində



# İlham Əliyev: “Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir”

## *Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib*



“Heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə mümkün deyildi, bu gün reallıqdır”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib. AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikasının inkişafının daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev bildirib ki, bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir:***

-Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir.

Çətin coğrafi vəziyyəti nəzərə alaraq, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir. Hazırda düşmənlə sərhəddə vəziyyət necədir və hərbi potensialın möhkəmləndirilməsi üçün əlavə hansı işlər görülməlidir?

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talibov:

-Çox sağ olun cənab Prezident. Bütün bunlar hamısı Sizin ölkəmizə uğurlu rəhbərliyinizin, Ümummilli Liderimizin yolunu uğurla davam etdirməyinizin nəticəsidir. Bütün bunlara görə muxtar respublika sakinləri adından Sizə minnətdarlığımızı bildiririk. Bu günlər sərhədlərdə məhəlli münaqişələr baş verir, ancaq buna baxmayaraq, Sizin rəhbərliyinizlə, qayğınızla muxtar respublikada yerləşən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birləşmə və hissələri uğurlu yol keçib, Əlahiddə Ümumqoşun Ordusu korpusdan Əlahiddə Ümumqoşun Ordusuna qədər yol keçibdir. Bu da Sizin qayğınızla yaradılıb. Alınmış silah-sursatla bu gün muxtar respublikanın ordusu da lazımınca təmin olunur. Hazırda muxtar respublikada yerləşən birləşmə və hissələrdə qəbul edilmiş planlara uyğun olaraq təlimlər və nəzəri işlər həyata keçirilir. Eyni zamanda, hazırda muxtar respublikanın əsgəri məişət komplekslərinin yaxşılaşdırılması sahəsində işlər gedir, hava hücumundan müdafiə sahəsində işlər həyata keçirilir. Bir sözlə, Sizin qayğınızla muxtar respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələr hər bir tapşırığı yerinə yetirməyə tam hazırdır.

Prezident İlham Əliyev: O dağ postlarına təchizatın təşkili ilə bağlı işlər görülüb?

Vasif Talıbov: Deməк olar ki, hamısına yollar çəkilibdir. Bəzi postlarımız var ki, onların təminatı avqust-sentyabr aylarında həyata keçirilir. Bütün hamısı ilə əlaqəmiz var, gələn ilin iyun ayına qədər təminat artıqlaması ilə həyata keçirilibdir və xidmətin aparılmasında heç bir problem yoxdur.

Prezident İlham Əliyev: Çox yaxşı. Digər vacib sahə energetikadır. Bu istiqamətdə də böyük işlər görülüb. Hazırda Naxçıvanda generasiya gücü 220 meqavata yaxındır və sevindirici hal ondan ibarətdir ki, bunun əksəriyyəti bərpaolunan enerji növləridir. Su və Günəş elektrik stansiyalarının tikintisi geniş vüsət almışdır. Hazırda uzun illər üzərində işlədiyimiz və İran İslam Respublikası ilə imzalanmış anlaşma nəticəsində reallaşan önəmli layihə icra edilir - 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası tikilir. Soruşmaq istəyirəm, bu istiqamətdə hansı işlər görülüb və stansiyanın tikintisi ilə bağlı əlavə hansı addımlar atılmalıdır?

Vasif Talıbov: Sizin qayğınız və iştirakınızla 2005-ci il dekabrın 20-də muxtar respublikada İran İslam Respublikasından alınmış qazın açılışı həyata keçirildi, bu gün 90 minə yaxın abonent qazla təmin olunubdur. Elektrik enerjisi sahəsində də böyük işlər görülüb. Əgər 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur. Siz qeyd etdiyiniz kimi, bunun da 6-sı bərpaolunan enerji sistemləridir. Əgər 2003-cü ildə muxtar respublika 1 milyard kilovatsaata yaxın enerji idxal etmişdisə, 2018-ci ildə 35 milyon kilovatsaata yaxın ixrac edibdir. Buna görə bu sahədə də Sizin qayğınızla işlər davam etdirilir, problem yoxdur. Ordubad Su Elektrik Stansiyası ilə bağlı Araz çayının bizim əraziyə tərəf hissəsində bənd tikilibdir, qapılar qoyulubdur, kanalda işlər davam etdirilir. İran İslam Respublikası ilə danışıqlar aparılır ki, o tərəfdən də bəndin tikintisi ilə bağlı işlərə başlanılsın. Vəsait ayırıbsınız, heç bir problem yoxdur, işlər davam etdirilir.

Prezident İlham Əliyev: Çox yaxşı. Bu, doğrudan da tarixi nailiyyətdir. Çünki Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayrılıb və belə olan halda enerji təminatı xüsusi əhəmiyyət kəsb edir. Bu, əslində, təhlükəsizlik məsələsidir və heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə mümkün deyildi, bu gün reallıqdır. Şadam ki, bərpaolunan enerjinin ümumi enerji balansındakı payı getdikcə artır və Ordubad Su Elektrik Stansiyasının istifadəyə verilməsi nəticəsində prinsip etibarilə Naxçıvan Muxtar Respublikası öz enerji təminatını 100 faiz bərpaolunan enerji hesabına qarşılayacaqdır.

Bir də ki, yolların tikintisinə də böyük vəsait ayrılmışdır və yollar keyfiyyətli tikilir. Mən özüm şəxsən bunun şahidi olmuşam. Naxçıvan-Şərur-Sədərək avtomobil yolu bir neçə ildir ki, istifadəyə verilib. Naxçıvan-Şahbuz yolu layihəsi tam icra edilib. Naxçıvan-Culfa yolu da icra edilib, hazırda Culfa-Ordubad yolunun tikintisi davam etdirilir. Bu istiqamətdə hansı işlər görülüb və bu yolun nə vaxt istifadəyə verilməsi nəzərdə tutulur?

Vasif Talıbov: Çox sağ olun. Ayırdığınız vəsaitlə orada işlər başlanıbdır, yolun uzunluğu 50 kilometrdir. O vaxt layihəni təsdiq edən zaman verdiyiniz tapşırığa əsasən onun 11 kilometri 2 gedişli-2 gəlişli, qalan 40 kilometrə yaxını isə 1 gedişli-1 gəlişlidir. Artıq orada torpaq və bir qat asfaltın qoyulması işləri başa çatıbdır. Bu ilin sonuna kimi orada ikinci asfalt qatının qoyulması başa çatacaq. İcazənizlə, biz üçüncü qatı qışda deyil, may-iyun aylarında qoyaq.

Prezident İlham Əliyev: Gələn ilə?

Vasif Talıbov: Bəli, yol böyüsün, otursun, may-iyun aylarında tamamilə tamamlanacaqdır.

Prezident İlham Əliyev: Beləliklə, şəhərlərarası bütün yollar artıq ən yüksək standartlara cavab verəcək.

Vasif Talıbov: Bəli, birinci dərəcəli yollar demək olar ki, tam standartlara cavab verən səviyyədə qurulur.

Prezident İlham Əliyev: Kənd yolları da tikilir, bu istiqamətə də vəsait ayrılmışdır və gələn ilin investisiya proqramında bu, nəzərə alınmalıdır.

Vasif Talıbov: Sağ olun. Ümumiyyətlə, 2003-2019-cu illər ərzində kənd yolları da daxil olmaqla, 2 min kilometrə yaxın ümumi yollar investisiya və büdcə vəsaiti hesabına qurulmuşdur.

Ardı Səh. 3

# İlham Əliyev: "Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir"

## *Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib*

Əvvəli Səh. 2

Prezident İlham Əliyev: Çox yaxşı. Şərur Sənaye Məhəlləsinin yaradılması üçün bu il 5 milyon manat vəsait ayrılıb və bu sahədə hansı işlər görülür? Eyni zamanda, Naxçıvanda yeni xalça fabrikinin tikintisi də nəzərdə tutulur. Bu sahədə hansı işlər görülüb? Məruzə edin.

Vasif Talıbov: Çox sağ olun. Ayırdığınız vəsait hesabına Şərur Sənaye Məhəlləsində artıq layihəplanlama işlərinə başlanılıbdır, qısa müddət ərzində investorların cəlbi ilə bağlı təkliflər vermişik. Təklifləri gözləyirik ki, orada hansı sənaye müəssisələri qurulsun. Demək olar ki, bu ilin sonuna artıq orada ilk müəssisənin qurulması işlərinə başlanılacaqdır. İlk olaraq bitki yağları istehsalı müəssisəsinin qurulması nəzərdə tutulubdur. Ona görə ki, muxtar respublikamızda bu, yüz faiz idxal hesabına həyata keçirilir.

Xalça fabrikinin qurulması işləri başa çatdırılıbdır. İndi yun tədarükü sexinin qurulması işləri davam etdirilir. Artıq orada işçilər götürülübdür, yəni, sınaq işləri başlanılıbdır, xalçalar toxunur. Bir-iki ay müddətində orada işlər tamamilə başa çatdırılacaq.

Prezident İlham Əliyev: Çox yaxşı. Artıq bir neçə ildir ki, Naxçıvan özünü taxılla tam təmin edir və məhsuldarlıq da yaxşıdır. Kənd təsərrüfatının inkişafı üçün indi pivot suvarma qurğularının alınması məqsədilə vəsait ayrılmışdır. Eyni zamanda, bu ilin investisiya proqramında Süni Mayalanma Mərkəzinin tikintisi nəzərdə tutulur. Bunun ümumi dəyəri təqribən 7 milyon manatdır, onun böyük hissəsi bu il verilməli idi, vəsait verildi və bu sahədə hansı işlər görülüb?

Vasif Talıbov: Muxtar respublikada bu sahəyə də diqqətiniz sayəsində, cənab Prezident, deyə bilərəm ki, bu illər ərzində 4 min hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələri qurulmuş, 160-dan yuxarı artezian quyusu qazılmışdır və kəhrizlər bərpa olunmuşdur. Bunun hesabına 2003-cü ildə muxtar respublikanın əkinə yararlı torpaqları əgər 39 min hektarı əhatə edirdisə, Heydər Əliyev su anbarını istifadəyə verdiyinizdən, yeraltı suvarma şəbəkələri qurulandan sonra bu gün artıq 62 min hektar əkinəyararlı torpaqlardan istifadə olunur və muxtar respublika özünü ərzaqla tam təmin edə bilir. Deyə bilərik ki, Sizin rəhbərliyinizlə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi məsələləri tam təmin olunubdur.

Prezident İlham Əliyev: Çox yaxşı. Eyni zamanda, əminəm ki, artıq ixrac potensialı da formalaşa bilər. Bildiyiniz kimi, Türkiyə tərəfi böyük addım ataraq Naxçıvanın istehsalı olan malların idxalı ilə bağlı da göstəriş vermişdir. Hesab edirəm ki, Naxçıvanın istehsal potensialı artdıqca ixrac imkanları da genişlənəcək.

Bir məsələyə də toxunmaq istəyirəm. Keçən il Naxçıvan büdcəsinin gəlirləri təqribən 400 milyon manata yaxın idi. İndi növbəti il üçün büdcə məsələləri müzakirə olunur. Əlbəttə ki, Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik. Ancaq bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm. Naxçıvan büdcəsinin cəmi 22 faizi yerli gəlirlər hesabına formalaşır, yəni, 383 milyon manatdan cəmi 83 milyon manatı yerli gəlirlər hesabına formalaşır, qalan 300 milyon manat Bakıdan dotasiya verilir. Hesab edirəm ki, növbəti illərdə yerli gəlirlərin artırılması istiqamətində işlər aparılmalıdır ki, onların faiz nisbəti artsın. Əminəm, belə olan halda daha da böyük imkanlar olacaq ki, sosial və sənaye layihələri icra edilsin.

Bütün ölkədə olduğu kimi, bu gün Naxçıvanda da maliyyə və iqtisadi sahələrdə şəffaflıq tam təmin edilməlidir. Bildirməliyəm ki, aparılan islahatlar nəticəsində təkcə bu ilin 10 ayı ərzində büdcə gəlirləri plandan əlavə 850 milyon manat artmışdır. Bunun yarısı gömrük, yarısı vergi orqanları hesabına formalaşıb. Bu vəsait sırf idarəetmədə aparılan islahatlarla, şəffaflıqla bağlıdır və bizə imkan verir ki, maaşları da, pensiyaları da artıraq, investisiya layihələrinə də vəsaiti artıraq. Ona görə gələn ilin büdcəsinə baxdıqda yerli gəlirlərin həm mütləq rəqəmlərinin artırılması, eyni zamanda, ümumi büdcədə yerli gəlirlərin faizinin artırılması üçün əlavə addımlar atılmalıdır.

Vasif Talıbov: Gələn ilin büdcəsi ilə əlaqədar deyə bilərik ki, maaş artımı ilə əlaqədar büdcənin həcmi də artmışdır. Gəlirlər hissəsi isə 12 milyon manata yaxın artırılmışdır, yəni, 2020-ci ilin büdcəsində yerli gəlirlər 100 milyon manata yaxındır. Pensiya və təqaüdlərin ödənilməsi üçün yerli büdcədə təqribən 100 milyon manata yaxın yığım nəzərdə tutulub.

Prezident İlham Əliyev: Çox yaxşı. Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır.

# Prezident İlham Əliyev Qətərin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzabın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab fəxri qarovul dəstəsinin qarşısından keçdi. Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab etimadnaməsini Prezident İlham Əliyevə təqdim edərək dedi:***



-Cənab Prezident, böyük şərəf hissi ilə qardaş və dost Azərbaycan Respublikasına səfir təyin olunmağımla bağlı etimadnaməni və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim edirəm. Sizin baxışınıza ən uyğun şəkildə ikitərəfli münasibətlərimizin inkişafı üçün əlimdən gələni edəcəyəm. Çox sağ olun. Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev:

-Xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edirəm. Əminəm ki, sizin Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafı davam edəcəkdir. Bizim çox yaxşı siyasi əlaqələrimiz var. Hər iki tərəf bu münasibətləri qardaş ölkələr arasında münasibətlər kimi dəyərləndirir. Bu, həqiqətdir. Əminəm ki, siyasi, iqtisadi və müxtəlif sahələrdə biz çoxlu tərəqqi müşahidə edəcəyik. Ölkələrimiz beynəlxalq arenada fəal əməkdaşlıq edir. Dövlət başçıları səviyyəsində qarşılıqlı rəsmi səfərlər olmuşdur. Bizim hökumətlərarası fəaliyyətimiz var. Nazirlər səviyyəsində qarşılıqlı səfərlər var. Ona görə əminəm ki, tərəfdaşlığımızın ənənəvi sahələrinə əsas diqqəti yetirmək və yeni sahələri aşkar etmək üçün gələcəkdə çoxlu imkanlar olacaq.

Hesab edirəm ki, ticarət dövriyyəsi ilə bağlı olan məsələyə xüsusi diqqət yetirməliyik. Hesab edirəm ki, ticarət dövriyyəsini hər iki istiqamətdə artırmaq üçün potensial var. Çünki indi bizim bir-birimizə təqdim edə biləcəyimiz daha çox şey var. Şadam ki, ölkənizdən gələn turistlərin sayı artmaqdadır və bu da bizim əməkdaşlığımızın yaxşı əlamətidir. Bildiyiniz kimi, sizin vətəndaşlar üçün heç bir viza tələbi yoxdur və əminəm ki, hər iki istiqamətdə biz turistlərin sayının artdığını görəcəyik.

Həmçinin potensial əməkdaşlıq sahələrindən biri də investisiyalardır. Bilirəm ki, sizin ölkəniz xaricə sərmayə yatırır, Azərbaycan da xaricə sərmayə yatırır, biz birgə investisiya layihələri üçün sahələri tapa bilərik. Odur ki, diqqətimizi cəmləşdirmək üçün çoxlu sahələr olacaq. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı siz çox məşğul olacaqsınız və əlaqələrimizin gücləndirilməsi üçün bütün vaxtınızı sərf edəcəksiniz.

Səfir Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab:

-Təşəkkür edirəm Zati-aliləri. Cənab Prezident, burada olmaqdan, Sizinlə görüşməkdən, Sizə etimadnaməmi təqdim etməkdən şərəf hissi duyuram. Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd Al Taninin Sizə salamlarını, xalqınıza daha böyük nailiyyətlər, rifah və tərəqqi arzularını çatdırıram. Buraya gəldikdən sonra biz hərtərəfli inkişafın şahidi olmuşuq və mən bunu görüşdüyüm hər kəsə söyləyirəm. Biz ilk baxışdan ölkənizə aşiq olmuşuq. Qoşulmama Hərəkatının Sammitində iştirak etmək, dini liderlərin Sammitini isə izləmək fürsəti mənə nəsib olmuşdur. Zati-aliləri, bu iki sammitin uğurlu keçirilməsi münasibətilə Sizi, hökumətinizi və xalqınızı təbrik edirik. Bu, bizdə belə bir təəssürat yaradır ki, Azərbaycan dünya xəritəsində öz çəkisinə malik olan ölkələrdəndir, düzgün istiqamətdədir və müxtəlif tədbirlərin keçirilməsi üçün ev sahibi kimi çıxış edir. Bu da Azərbaycan üçün siyasi vasitədir. Əlbəttə ki, bizim çox mükəmməl münasibətlərimiz var. Mənə şəxsən bu münasibətlərin bütün istiqamətlərdə inkişafı üçün gərgin çalışmaq təlimatı verilmişdir.

Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri Əlahəzrət şeyx Təmim bin Həməd Al Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

# "Əlaqələrimiz çox yüksək səviyyədədir və biz bir çox sahələrdə uğurlu əməkdaşlıq edirik"

## *Prezident İlham Əliyev İordaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sami Abdullah Ğoşehin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, Sami Abdullah ĞOŞEH etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib:***

- Cənab Prezident, İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri kimi etimadnaməmi və sələfimin geri çağırılma məktubunu təqdim etmək mənim üçün şərəfdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev:

-Xoş gəlmisiniz cənab səfir, sizi Azərbaycanda salamlayıram, sizə uğurlar arzulayıram. Əminəm ki, fəaliyyətiniz dövründə biz İordaniya-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafını görəcəyik.

Bildiyiniz kimi, əlaqələrimiz çox yüksək səviyyədədir və biz bir çox sahələrdə uğurlu əməkdaşlıq edirik. Mənim qardaşım Kral həzrətləri ilə çox möhkəm dostluq-qardaşlıq münasibətlərimiz vardır. Bildiyiniz kimi, dövlət başçılarının bir çox qarşılıqlı səfərləri təşkil edilmişdir. Beynəlxalq təşkilatların tədbirləri zamanı biz həmişə bir-birimizlə görüşürük. Eyni zamanda, beynəlxalq tədbirlər zamanı da həmişə görüşürük. Ötən ay Rusiyada "Valday" Diskussiya Klubunun iclasında birlikdə iştirak etmişik. Doğrudan da Kral həzrətləri ilə bizim çox yaxın əlaqələrimiz var və bu əlaqələr ikitərəfli münasibətlərimizin inkişafı üçün də mühüm rol oynayır. Beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birimizi dəstəkləyirik və bu qarşılıqlı dəstək və həmrəylik davam etdiriləcək.

Hesab edirəm ki, biz növbəti mərhələdə daha çox iqtisadi əməkdaşlığa fikir verməliyik. Hələ ki, qarşılıqlı ticarət dövriyyəmiz bizim istəklərimizi əks etdirmir. Ona görə ticarət dövriyyəsinin artırılması istiqamətində əlavə addımların atılması lazımdır. Hesab edirəm ki, hökumətlərarası komissiya da bu istiqamətdə önəmli addımlar atacaq. Qarşılıqlı sərmayə qoyuluşu məsələlərinə də çox diqqətlə baxmaq lazımdır. Son zamanlar turizm sahəsində yaxşı irəliləyiş var və əminəm ki, bu müsbət dinamika davam etdiriləcək. Ölkənizin çox məşhur, dünya səviyyəli tarixi abidələri, əlbəttə ki, bir çox ölkələrdən turistləri ölkənizə cəlb edir. Son illərdə Azərbaycana da xaricdən gələn turistlərin sayı kəskin artmışdır. Bu ilin on ayında 11 faiz artım var. Ancaq oktyabr ayında keçən ilin oktyabrı ilə müqayisədə 25 faiz artım olub.

Biz sözlə, əlaqələrimizin hərtərəfli inkişafı üçün çox gözəl şərait vardır. Əminəm ki, siz öz fəaliyyətinizlə bu işlərə yeni təkan verəcəksiniz. Bir daha xoş gəlmisiniz.

Səfir Sami Abdullah Ğoşeh:

-Cənab Prezident, gərgin iş qrafikinizə baxmayaraq, bizə vaxt ayırıb qəbul etdiyinizə, etimadnaməni təqdim etmək üçün şərait yaratdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. İcazə verin, İordaniya Haşimilər Kralı II Abdullahın salamlarını Sizə çatdırım. Azərbaycan Respublikasına və Azərbaycan xalqına davamlı inkişaf, rifah və şəxsən Sizə cansağlığı, uzun ömür arzulayıram.

Əlahəzrət Kralın təlimatına uyğun olaraq mən işlədiyim müddət ərzində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı istiqamətində səylərimi əsirgəməyəcəyəm. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindəki həmkarlarımla birlikdə və digər qurumların köməyi ilə bu əlaqələrin daha da inkişaf etməsinə nail olacağıq. İki ölkə arasında iqtisadiyyat, investisiya və turizm sahələrində əlaqələrin inkişafı üçün azərbaycanlı həmkarlarımızla birgə iş görəcəyik. Cənab Prezident, Əlahəzrət Kral gələn ay Sizinlə görüşmək arzusundadır.

Cənab Prezident, icazə verin, mən Azərbaycanda gördüyüm bu möhtəşəm inkişaf, bütün sahələri əhatə edən tərəqqiyə valeh olduğum barədə hisslərimi Sizə bildirim. Qeyd etmək istəyirəm ki, cənab Prezident, mən, əlbəttə, Azərbaycanın necə gözəl, füsunkar ölkə olduğunu şəkillərdən, fotolardan bilirdim, amma buraya gəldiyim ilk gündən bunun bilavasitə şahidi oldum. Əlbəttə, əldə olunmuş bu misilsiz, əvəzolunmaz tərəqqinin adamda yaratdığı ilk təəssürat odur ki, həqiqətən Azərbaycan inkişaf etmiş dövlətlərin sırasındadır.



Prezident İlham Əliyev: Təşəkkür edirəm, xahiş edirəm mənim də səmimi salamlarımı Kral həzrətlərinə çatdırasınız.

Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Əminəm ki, fəaliyyətiniz dövründə siz Azərbaycanın müxtəlif regionlarına səfər edəcəksiniz, ölkəmizlə, xalqımızla yaxından tanış olacaqsınız. Eyni zamanda, onu görəcəksiniz ki, İordaniyaya, onun xalqına Azərbaycan cəmiyyətində çox böyük rəğbət var.






# YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edən lider partiyadır

***Yarandığı zamandan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin və şərəfli yol keçib.***

1992-ci il noyabrın 21-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sədrliyi və tanınmış ziyalıların iştirakı ilə Naxçıvan şəhərində YAP-ın təsis konfransının keçirilməsi o zaman yeni müstəqillik qazanmış ölkəmizin bu müstəqilliyi itirmək təhlükəsindən xilas olmasına və ölkəmizin müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişməsinə aparan yolun başlanğıcı oldu. Həmin zamandan bu günə kimi, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu YAP ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayır. Müasir dövrdə beynəlxalq arenada tanınan və qəbul edilən nüfuzlu partiyalar sırasında böyük nüfuz sahibidir. Sözsüz ki, partiyanın yüksək nüfuzu, bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti ilə bağlıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu, hazırda 750 minə yaxın Azərbaycan vətəndaşını sıralarında birləşdirən Yeni Azərbaycan Partiyası bu gün də müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir ki, bu da, partiyaya ümumxalq inam və etimadının daim artması ilə müşahidə olunur. Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilmişdir. Yarandıqdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçmişdir".

YAP-ın fəaliyyət mexanizminin əsaslarını təşkil edən mühüm prinsiplərdən biri güclü dövlət anlayışıdır. Bu güclü dövlət anlayışı isə, həm dövlətin iqtisadi qüdrətinin artırılmasını, həm də vətəndaşların sosial-rifah halının yaxşılaşdırılmasını özündə ehtiva edir. Bu gün müasir Azərbaycan demokratik, hüquqi və sosial dövlət kimi tanınır. Azərbaycanın sosial dövlət olmasını göstərən amillərdən biri həyata keçirilən siyasətin mərkəzində insan amilinin olmasıdır. Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin Sədri olduğu YAP-ın fəaliyyətində də sosial ədalət anlayışı mühüm yer tutur. Təsadüfi deyil ki, cəmiyyətdə müxtəlif təbəqələrin nümayəndələrinə bərabər imkanların yaradılması, sosial dövlət vasitəsilə sosial rifahın təmin olunması kimi başlıca məsələlər Yeni Azərbaycan Partiyasının ideoloji siyasətində sosial ədalət prinsipi ilə ifadə olunub.

## "BU GÜN YENİ AZƏRBAYCAN PARTİYASI DÜNYA MİQYASINDA ÇOX BÖYÜK VƏ GÜCLÜ PARTİYADIR"

2003-cü ildən etibarən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində, Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə, dünyanın lider dövlətləri sırasında olmuşdur. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Həmin illərdə insanlar ən kiçik sosial ehtiyaclarını ödəyə bilmirdilər. Bu gün hər bir sahədə uğurlar qazanılıb və Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır, regionun isə lideridir. Bu gün regionda Azərbaycanın razılığı olmadan hər hansı bir layihəni həyata keçirmək mümkün deyil. İstər ölkə daxilidə, istərsə də beynəlxalq miqyasda əldə olunan nailiyyətlər, qazanılan nüfuz ölkə gerçəkliklərinə söykənir. Bu uğurların əldə edilməsində Yeni Azərbaycan Partiyasının rolu danılmazdır. Ölkə başçısı əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu olduğunu çıxışlarının birində belə bildirmişdi: "Bu gün partiyamız, ölkəmizin aparıcı siyasi qüvvəsi kimi, bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir".

## YAP XALQIMIZIN MİLLİ MARAQLARINI İFADƏ EDƏN VAHİD VƏ AVANQARD SİYASİ QÜVVƏYƏ ÇEVRİLİB

Azərbaycanda gedən bütün inkişaf, məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Bu gün də bu siyasət çox böyük uğurla Azərbaycan Prezident İlham Əliyev tərəfindən aparılır. Müasir dövrümüzdə Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs çərçivəsində sosial məsələlərin həlli və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi də hər zaman diqqət mərkəzindədir. Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şərait yaradılıb ki, bu da, Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. İnsan sağlamlığı və onun hərtərəfli təminatı istiqamətində ardıcıl işlər görülür. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Böyük Şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzu getdikcə artmaqdadır. Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Möhtərəm Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib. Bu gün YAP xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib. Xalqın partiyaya inamı, məhəbbəti yüksəlir və vətənini, xalqını sevən hər kəs Prezident İlham Əliyev ətrafında sıx birləşir. Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasın Sədri Cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində, Azərbaycan hər bir sahədə böyük inkişaf yolu qət edib. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Bütün sahələrdə görülən işlər və qazanılan uğurlar, onu göstərir ki, Azərbaycan xalqı düzgün seçim edib. İnkişaf və tərəqqi yolunu tutaraq, bütün fəaliyyət prinsiplərini dövlətə və xalqa xidmət üzərində quran YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edərək, xalqımızın inam gətirdiyi lider partiyadır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü münasibətilə xalqımızı təbrik edib



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 17 noyabr - Milli Dirçəliş Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib.***

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bu gün - 17 Noyabr - birlik və həmrəylik, Vətənə və milli dövlətçiliyə sədaqət kimi nəcib hissləri təcəssüm etdirən Milli Dirçəliş Günüdür. Bu bayram münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edir, hər bir soydaşımıza cansağlığı, sevgi və səadət arzulayıram! Qoy xalqımızın həmrəyliyi, dövlət müstəqilliyimiz, ölkəmizdə hökm sürən sülh və əmin-amanlıq əbədi olsun!".

# Əli Kərimli və radikal ətrafı bəraət axtarışında

***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində "Əli Kərimli və radikal ətrafı bəraət axtarışında" adlı status paylaşıb. AZƏRTAC statusu təqdim edir.***



Bu günlər dövlətin yeni iqtisadi-siyasi islahatlar aparması, fərqli sosial zümrələrə açılma, Prezidentin ictimai nəzarət üçün cəmiyyətdən dəstək istəməsi Azərbaycanımızın taleyinə biganə qalmayan bütün sivil qüvvələr tərəfindən təqdirlə qarşılanır, ölkədə yeni, daha sağlam siyasi mühit yaranır. Amma bununla paralel olaraq, əsasən Əli Kərimli və radikal antimilli ətrafının get-gedə daha da ifrat, barışmaz mövqeyə yuvarlanmasının şahidiyik.

Belə ifrat inkarçı mövqenin səbəbləri nədir?

Birincisi, Azərbaycan iqtidarının sosial təşəbbüslərinin uğuru radikal müxalifətin məhdud sosial bazasını daha çox tükəndirir. Bu, özünü 19 oktyabr aksiyasındakı biabırçı fiasko və noyabrın 2-nə təyin etdikləri aksiyanı təxirəsalma məcburiyyətləri ilə təsdiqlənir.

İkincisi, bəlli olur ki, Əli Kərimli və radikal antimilli ətraf sosial şəbəkələrdə izləyicilərinin yarıdan çoxunu itiriblər. Onların "Facebook" səhifəsində bəyənmələrin, paylaşımların statistikasında azalma templəri güclənib. Xatırladaq ki, "Facebook" sosial şəbəkəsi administrasiyası bəyan edib ki, bu il 5,4 milyard saxta hesabı bağlayıb. Bu, sosial mediada manipulyasiya və dezinformasiyaya qarşı savaşın davam etdiyini göstərir. "Saxta, manipulyasiya məqsədilə yaradılan hesabları aşkarlayaraq bloklamaq qabiliyyətimizi gücləndirmişik", - deyə internet şirkəti hesabatında bildirir. Diqqətli oxucu bu iki hadisə arasında paralel apararaq asanlıqla Əli Kərimli, Cəmil Həsənli və radikal antimilli ətraflarının izləyici və bəyənmə itkilərinin "Facebook" şəbəkəsinin öz araşdırmasının, dezinformasiyaya qarşı effektiv mübarizəsinin nəticəsi olduğunu anlaya bilir.

Üçüncüsü, uzun illər özünü milli qüvvə kimi təqdim edənlərin Bako Saakyan, Masis Mailyan kimi işğalçı xunta rəhbərləri ilə eyni lojaları, Azərbaycana və Türkiyəyə münasibətdə həm də eyni ədavəti bölüşməsi bu yaxınlarda ABŞ-da keçirilən dinləmələrdə bir daha faş oldu.

Dördüncüsü, Almaniyada aparılan hüquqi araşdırmalar radikal müxalifətin trafikinq-insan alveri biznesində iştirakına dair hər gün yeni faktlar aşkara çıxarır. Almaniyadakı araşdırmaların ardınca Fransa və digər Avropa ölkələrində də araşdırmalar aparıldığı barədə informasiyalar verilməkdədir. İlkin açıqlanmış araşdırmalar Müsavatı silkələdiyi kimi, araşdırmaların davamı Əli Kərimli və radikal antimilli ətrafını bəri başdan təhdid etməkdədir. Axı, Müsavatın AKM uzantısının bu biznesdə əsas rəqibi "Milli şura"nın Avropadakı müxtəlif strukturlarıdır.

Beşincisi, bu qruplaşma son zamanlar yalnız ailə-məişət qalmaqalları, qadınlara qarşı zorakılıq aktları ilə gündəmə gəlir, cəmiyyətə hər hansı yenilik, siyasi və ya şəxsi əxlaq nümunəsi təqdim etməyə qabil olmadığını sübut edib və s.

Beləliklə, iqtidarın uğurlu daxili siyasəti radikalları dəstəkləyə biləcək məhdud elektoratın daha çox əriməsinə səbəb olur. "Facebook", "YouTube" kimi sosial şəbəkə administrasiyalarının tətbiq etdiyi yeniliklər Əli Kərimli, Cəmil Həsənli və "Milli şura"dakı digər radikalların ictimai rəy lideri olmaları haqqında uydurulmuş saxta rəqəmlərin birdən-birə iki-üç dəfə azalması ilə nəticələnir. Bu, həm də o deməkdir ki, Əli Kərimli və radikal antimilli ətrafının sosial şəbəkə üzərindən inqilab etmək arzusu da puç olub. İqtidarın milli maraqlara söykənən uğurlu diplomatik həmlələrinin antimilli ünsürlər tərəfindən sabotaj edilmə cəhdləri cəmiyyətdə daha çox marginallaşmalara səbəb olur. Nəhayət, Avropada başlamış hüquqi araşdırmalar radikal müxalifətə Qərbdə guya böyük dəstək verilməsi barədə uydurmaların da yalan olduğunu, bu müxalifətin Qərbin ciddi institutları tərəfindən məhz insan alveri ilə məşğul mafioz qurumlar kimi qəbul edildiyini aşkarlayır. Bəlli oldu ki, Azərbaycan iqtidarının illərlə dediklləri həqiqətdir: xaricdə, Qərbdə bu qüvvələrə yalnız anti-Azərbaycan dairələr, erməni lobbisi dəstək verir.

Belə hərtərəfli ifşa, dibə vurmadan sonra Əli Kərimli və radikal antimilli ətrafı nəticə çıxarıb indiyədək dəfələrlə media və IT ekspertlərinin açıqladığı faktları qəbul edib daha sağlam fəaliyyət metodları seçməli, saxta profillərdən istifadəyə, botlarla izləyici sayı artırmaq, özünə barmaqdan elektorat sorub çıxarma cəhdlərinə son qoymalı idilər. Antimilli qüvvələrin əlində alətə çevrildiklərini, müxalifətin yenilənməsi, cəmiyyətdə vətəndaş sülhünün dərinləşməsi önündə əngəl olduqlarını, minlərlə soydaşımızı "liberal cənnət" vədi ilə aldadıb son qəpiklərini də mənimsədiklərini, indi həmin soydaşlarımızı Avropada qaçqın kamplarında çox pis vəziyyətdə yaşadıqlarına görə məsuliyyət daşıdıqlarını etiraf etməli idilər. Bunun əvəzində nə görürük?

Müşahidə etdiyimiz odur ki, Əli Kərimli çevrəsindəki yaxın "silahdaşlarına" maksimum müdafiə olunmaq, heç bir səhvi etiraf etməmək, vətəndaşları aldatmanın kiçik miqyasda olduğunu deməklə ittihamları sovuşdurmaq, ənənəvi qaydada dövlətə, dövlət rəhbərliyinə qarşı kin-küdurət qusmaq tapşırığı verib. Bu işdə "Əli Kərimli TV" kimi rebrendinqə getməyi nədənsə xeyli ləngidən Sevinc Osmanqızı, Nəcəf Nəcəfovun "Azadlıq" brendini gözdən salıb Nikol Paşinyanın "Haykakan jamanak ("Erməni saatı") qəzetinin adından ucuz plagiat yolu ilə anti-Azərbaycan "Azərbaycan saatı" yaratmış Qənimət Zahidov və əli gah ifşa olunmuş korrupsionerlərin cibindən, gah otel odalarından, gah da ayətullahların risalələrindən çıxan Natiq Adilov xüsusi canfəşanlıq edirlər.

İnsanın savadsızlığına da, mədəniyyətsizliyinə də, cahilliyinə də göz yumub birtəhər onunla yanaşı yaşamaq olar, amma əxlaqsızlıqla bir arada yaşamaq çox çətindir. "Tutaq ki, müxalifət funksionerlərindən kimlərsə saxta viza alverində iştirak ediblər. Etiraf edim ki, mən bunu ciddi miqyaslı problem kimi qəbul etmirəm. Bu alverin həcmi nə qədərdir ki? Nə qədər məbləğdən söhbət gedir? Olsun 500 min, 1 milyon, 5 milyon", - Sevinc Osmanqızı belə deyir. Bu nə məntiqdir, bu nə "siyasi şəffaflıq" nümunəsidir? 500 minlə 5 milyon arasında doğrudanmı fərq yoxdur sizin üçün? Axı, bu pulların hər bir qəpiyi də aldatdığınız, milli dövlətlə, ana vətənlə problem yaratdığınız insanların sınan taleləri, dağılan ailələri deməkdir. Sizin "izzəti-nəfs" dediyiniz, "sanballı rəqabət" dediyiniz budurmu?

Əxlaqsızlığa "şəxsi həyatımdır" deyib haqq qazandırmaqdırmı sağlam cəmiyyət uğrunda, izzəti-nəfs uğrunda mübarizə? Siyasi islam liderlərini sitatlarını tutuquşu kimi təkrarlamaqdırmı liberal Qərb dəyərləri uğrunda mübarizə? Ən korrupsiyaya bulaşmış ünvanlardan "gecə növbəsi" işi adı ilə aylıq almaq, susmaq- yazmamaq müqabilində ianə qoparmaq üçün saatlarla qapıları pusmaqdırmı cəmiyyəti sağlamlaşdırma? Cibindən asılı olduğun qaranlıq dairələrin sifarişi ilə siyasi opponent bildiyin komandanın ayrı-ayrı fərdlərinə qarşı qara PR aparmaqdırmı urvatlı-sanbalı mübarizə? Cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməkdirmi siyasi mübarizə? Satqınlığı tərəfdarlarına nümunə kimi təqdim etməkdirmi müxalifətçilik?

Əminəm ki, qarşıdan gələn bələdiyyə seçkiləri də klaviatura qəhrəmanlarının heç bir siyasi sanbalı, çəkisi olmadığının növbəti nümayişi olacaq.

## Akademik Ramiz Mehdiyev Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti ilə görüşüb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Ramiz Mehdiyev Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Roin Metreveli ilə görüşüb. AMEA-dan AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Gürcüstan Milli Elmlər akademiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə əlaqədar məsələlər müzakirə olunub. AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev ölkəmizdə dövlət səviyyəsində dost və qonşu Gürcüstanla əlaqələrə xüsusi diqqət yetirildiyini vurğulayıb.



Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Roin Metreveli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə görüşlərindən söz açıb, ictimai və humanitar elmlər sahəsində elmi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanlar olduğunu bildirib.

# Qlobal Sahibkarlıq Həftəsinə həsr edilmiş "Üfüqdə yeni fürsətlər: Qadın Sahibkarlara yaşıl işıq" adlı II Forumu keçirilib



***Azərbaycan Dövlət Filarmoniyasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası ilə birgə Qlobal Sahibkarlıq Həftəsinin qeyd olunmasına həsr edilmiş "Üfüqdə yeni fürsətlər: Qadın Sahibkarlara yaşıl işıq" adlı II Forumu keçirilib.***

Forumda "Uğurlu qadınların hekayəsi", "İncəsənətdə sahibkarlığın inkişafı", "Azərbaycanda Turizm Biznesi - Evdə məşğulluğun inkişafı, "Biznes fəaliyyəti olan qadınlar: üstünlüklər, çətinliklər və imkanlar", "Azərbaycanda sahibkarlığın təşviqində biznes təhsilinin rolu" və "Bankların qadınlara göstərdiyi dəstək mexanizmləri" adlı panellər üzrə müzakirələr aparılıb.

Forumda çıxış edən AQSİA İdarə Heyətinin sədri Səkinə Babayeva qeyd edib ki, bu kimi forumlar dünyanın 154 ölkəsində keçirilir və ümumilikdə, hazırkı vaxta qədər Qlobal Sahibkarlıq Həftənisə həsr edilmiş 601 tədbir keçirilib. "Belə bir mötəbər tədbirin Azərbaycanda da keçirilməsi ölkəmizdə qadın sahibkarlara verilən dəstəyin növbəti bariz nümunəsidir", deyə qeyd edən Səkinə Babayeva, həmçinin, bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sahibkarlığın inkişafına verdiyi davamlı dəstək qadın sahibkarların da fəaliyyətində özünü ən yüksək səviyyədə göstərməkdədir.

"Biz də, bir assosiasiya olaraq, ölkənin iqtisadi inkişafına öz töhfəmizi verməyə çalışırıq" deyə qeyd edən AQSİA-nın İdarə Heyətinin rəhbəri vurğulayıb ki, qadın sahibkarlığının inkişafı üzrə stimullaşdırıcı mexanizmlərin işlənib-hazırlanması, qadın sahibkarlığına informasiya dəstəyinin inkişaf etdirilməsi, qadın biznes inkubatorlarının yaradılması, qadın sahibkarların assosiasiyalarının və peşə təşkilatlarının yaradılması kimi işlərin ardıcıl şəkildə həyata keçirilməsi bu istiqamətdəki fəaliyyətə stimul verir.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov isə, çıxışında vurğulayıb ki, Azərbaycanda qadın sahibkarlığının inkişafına böyük dəstək göstərilir. O bildirib ki, bu, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin qadın sahibkarlığının inkişafı istiqamətində gördüyü işlərin nəticəsidir: "Mən artıq neçənci dəfədir ki, qadın sahibkarlığı ilə bağlı toplantıda iştirak edirəm. Azərbaycanda qadın sahibkarlığının daha da inkişaf etdiyinin şahidi oluram. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizdə həyata keçirilən islahatların mərkəzində insan amili durur. 2019-cu ildə Azərbaycanda 2 mərhələdə böyük islahatlar həyata keçirilib. Minimum əməkhaqları və pensiyalar ciddi şəkildə artırılıb".

YAP İcra Katibi Əli Əhmədov onu da qeyd edib ki, Azərbaycan iqtisadiyyatı imkan verdiyi çərçivədə, ölkə Prezidenti və hökumət tərəfindən insanların rifahının yaxşılaşdırılması istiqamətində addımlar atılacaq: "İnsanların rifahının yaxşılaşdırılmasında əsas istiqamətlərdən biri məşğulluğun inkişafıdır. Burada da əsas məsələ ölkədə qadın sahibkarlığının artırılması ilə əlaqədardır. Azərbaycan qadınları bütün sahələrdə kifayət qədər yüksək fəallıq göstərməyə hazırdırlar. İqtisadiyyatın bir çox sahələrində, səhiyyədə və təhsildə qadınlarımızın iştirak səviyyəsi kişilərdən daha yüksəkdir. Qadının ictimai fəallığının artırılması Azərbaycan cəmiyyətinin demokratik potensialının gücləndirilməsinin vacib hissələrindən biridir. İkinci tərəfdən, ailələrin təminatının yaxşılaşdırılmasında qadın sahibkarlığının inkişafının rolu böyükdür. Bununla birlikdə, qadınlar Azərbaycan iqtisadiyyatına, bütövlükdə, ölkənin inkişafına töhfə verirlər". Forumda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova isə bildirib ki, bütövlükdə, mərkəzlər vasitəsilə 6500-dən çox üzvü olan güclü qadın şəbəkəsi yaradılıb: "Qarşımızda dayanan vəzifələrdən biri sahibkar qadınlara yeni bazarlara çıxış imkanlarının yaradılmasıdır". Komitə sədri qeyd edib ki, qadın sahibkarlığı sahəsində bir sıra yeniliklər müşahidə edilir: "Azərbaycanda qadın sahibkarların sayı ilbeil artır. Bu isə, əhalinin həyat tərzinin yaxşılaşdırılması, yeni iş yerlərinin açılmasına səbəb olur. Qadınların peşə-ixtisas kurslarına cəlb edilməsi daha da güclənməlidir. Qadın sahibkarlığın inkişafı yoxsulluğun azalmasına yardım edir".

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov isə, çıxışında, bildirib ki, Azərbaycanda hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan qadınların sayı 200 minə yaxındır. Onun sözlərinə görə, onlardan, təxminən, 33%-i Bakıda, 17%-i Aranda, 16%-i Gəncə-Qazax, 10%-ə yaxını isə Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda fəaliyyət göstərir.

Forum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycanda Qadın Sahibkarlığının inkişafı Assosiasiyasının təqdim etdikləri filmlə davam etdirilib.

***RÖVŞƏN NURƏDDİNOĞLU***

# "Naxçıvanın inkişafı və təhlükəsizliyi dövlət başçısının diqqət mərkəzindədir"



"Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı və təhlükəsizliyi daim Azərbaycan Prezidentinin diqqət mərkəzindədir". Bunu Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edərkən Naxçıvanın inkişafı, təhlükəsizliyinin təminatı ilə bağlı mühüm məsələlərə toxundu: "Cənab Prezident qeyd etdi ki, "Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik". Prezident İlham Əliyev, həmçinin Naxçıvanın ixrac potensialının gücləndirilməsi, bərpaolunan enerji gücünün artırılması və ordu quruculuğu ilə bağlı vacib məqamlara toxundu. Hesab edirəm ki, bütün bunlar Naxçıvanın gələcək inkişafında mühüm rol oynayacaq".

Deputat vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin açılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib: "Muxtar respublikada quruculuq və abadlıq işləri geniş vüsət alıb. Yeni parklar salınır, inzibati binalar, o cümlədən, məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları, idman obyektləri, icra nümayəndəlikləri və bələdiyyə binaları, ən modern üslubda lakin milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınmaqla yüksək sürətlə və zövqlə inşa edilib vətəndaşların ixtiyarına verilir. Bütün obyektlər müasir komunikasiya, o cümlədən, yüksək sürətli internetlə tam təmin edilib.

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Naxçıvanda əsas prioritet sahələrdəndir. Ekspertlər bu sahələr arasında kənd təsərrüfatının əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır. Müasir dövrdə ən aktual problemlərdən biri kəndlərdən şəhərlərə köçməyin kütləvi hal almasıdır. Naxçıvanda isə belə bir problem yoxdur. Kəndlərdə ticarət və xidmət obyektləri daxil olmaqla hər cür zəruri infrastrukturun yer aldığı nümunəvi kənd mərkəzləri yaradılıb. Habelə, kəndlərdə yaşayan əhalinin məşğulluğu təmin edilib. İnsanların kənd təsərrüfatı ilə məşğul olmaları, bol məhsul əldə etmələri üçün şərait yaradılıb. Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, ölkəmizdəki ən keyfiyyətli yolların çəkilməsi, qazın, işığın davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması, kənddə şəhər rahatlığının ən yüksək səviyyədə təmin olunması insanların torpağa bağlılığını daha da artırıb, kənd təsərrüfatının inkişafını təmin edib".

S.Novruzov əlavə edib ki, muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkanlar yaradıb, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırıb: "Naxçıvanda həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlib".

# Bir illik cəbhə hakimiyyəti fiqurlarının fəaliyyəti beynəlxalq müzakirə müstəvisində

## *Prezidentin ittihamlarının beynəlxalq hədəfləri...*

***Rasim Quliyev: "Bu amil Azərbaycanın imicinə zərbə vurduğu, qonşularımızla münasibətləri korladığı üçün Cənab Prezident dövlətin nüfuzunu düşünərək bu mövzulara bir daha toxunmağı zəruri bilir"***

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup din xadimindən ibarət nümayəndə heyəti ilə görüşündə bir daha AXC hakimiyyətinin yarıtmaz fəaliyyətindən danışaraq deyib: "Xalq Cəbhəsində Azərbaycan cəmiyyətinin ən tör-töküntü təbəqəsi toplaşmışdı. Hər bir cəmiyyətdə töküntülər var. Onlar da belə idi. Onlar hakimiyyəti qəsb etdilər. Mahiyyət etibarilə Azərbaycan xalqının çoxəsrlik ənənələrini məhv etdilər".

Prezident daha sonra bildirib ki, onlar düşmənçilik, nifrət toxumu səpir, dinlərarası ayrıseçkiliyi qızışdırır, oğurluqla məşğul olur, tramvay xətlərini kəsirdilər, çünki orada mis vardı, kəsdikləri qonşu ölkələrə satırdılar: "Təsəvvür edin ki, savadsız bir demoqoq müdafiə naziri olmuşdu. Xırda alverlə məşğul olması ilə tanınan bir adam baş nazir olmuşdu. İdarəçilik sahəsində heç bir təcrübəsi olmayan insan ölkəyə başçılıq edirdi. O, hətta kolxoza da rəhbərlik etməmişdi. Hələ onu demirəm ki, parlamentin rəhbəri 11 il kiçik elmi işçi olmuşdu və bu illər ərzində hətta namizədlik dissertasiyasını da müdafiə edə bilməmişdi. Onlar, sadəcə, savadsız adamlar idi. Dövlət katibi isə keçmiş komsomol fəalı, karyerist və qorxaq



adam idi. Onun qorxaqlığını bütün Azərbaycan xalqı bu yaxınlarda bir daha gördü. Heç bir xarici dildə danışa bilməyən, hətta Azərbaycan dilində də pis danışan fizika müəllimi xarici işlər naziri olmuşdu. Belə işlər də olub, ümumiyyətlə, o nə ingilis dilini bilirdi, nə də rus dilini. Ümumiyyətlə o, diplomatiyanın nə demək olduğunu anlamırdı. O vaxt vəziyyət belə idi...".

Qeyd edək ki, İlham Əliyev son iki ayda biri-birinin ardınca, əvvəlcə Rusiyada "Valday" klubunda, Aşqabadda MDB dövlət başçıları sammitində , Qoşulmayan ölkələrin Bakı sammitində, iki gün əvvəl dünya din xadimlərinin Bakı toplantısında və nəhayət Rusiya Federasiyası Şimali Qafqazı təmsil edən din xadimləri ilə görüşdə bir daha AXC dövründəki səriştəsiz idatəetmə və yerində olmayan kadr problemlərinə toxunub. Ölkə başçısının beynəlxalq miqyaslı tədbirlərdə dəfələrlə bu mövzuya toxunması hansı effekti verir və verə bilər? Həmin tənqidlərdə adları çəkilən partiya və şəxslər hələ də bu məsələyə cavab vermir, niyə?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələyə ilk olaraq Prezidentin həmin dövrdəki idarəetməni niyə səriştəsiz adlandırmasına aydınlıq gətirməklə giriş edək: "Birincisi, burada subordinativ münasibətlərin pozulmasından söhbət gedə bilər. Hamımızın yadındadır ki, o qədər də uzaq olmayan keçmişdə AXC hakimiyyəti dönəmində dövlətin idarə olunmasında doğrudan da sistemsizlik mövcud idi. Məsələn, daxili işlər, müdafiə nazirləri əllərində silahlı dəstələr olduqlarına görə özlərini mütləq hakim sayırdılar. Müstəqil qərarlar qəbul edirdilər. Dövlətin özünün Dağlıq Qarabağ üzrə təyin etdiyi səlahiyyətli nümayəndəsi Surət Hüseynov tabeliyində olan silahlı dəstələrlə öz hakimiyyətinə qarşı silahlı qiyam qaldırdı. Səriştəsiz idarəetməyə aid daha bir misal çəkim. Ələkrəm Hümbətov ayrıca "respublika" elan etdi. O da AXC-nin fəallarından olmuşdu. Son nəticədə dövlət yalnız Bakıdan ibarət oldu. Bu cür problemlərlə üz-üzə qalan hakimiyyət həmin dövrün problemlərini həll etmək iqtidarında deyildi. Onun acı nətəcələrini biz yaxşı gördük. Həmin hakimiyyətin dönəmində xarici siyasətdə də ciddi problemlər vardı. Dövlətin xarici siyasətində konseptual yanaşma olmadığı üçün xarici siyasət rəhbər fərdlərin şəxsi təfəkkürünə uyğun formalaşdırılırdı. Həmin bir il ərzində qonşularımızla münasibətlərdə çox ciddi problerlə üzləşdik. Həmin zaman Azərbaycan dövləti üçün utanc sayıla biləcək dönəmdi. Bu amil Azərbaycanın imicinə zərbə vurduğu, qonşularımızla münasibətləri korladığı üçün cənab Prezident dövlətin nüfuzunu düşünərək bu mövzulara bir daha toxunmağı zəruri bilir.

Eyni zamanda, bununla Azərbaycanın hansı çətin dönəmlərdən keçərək bu tərəqqiyyə nail olduğuna işarə edilir. Bizim hazırda, Ermənistan istisna olmaqla, dünyadakı bütün dövlətlərlə normal münasibətimiz formalaşıb. Prezidentin konkret olaraq tənqid etdiyi şəxslərin deməyə nə sözü ola bilər? Çünki həmin vaxt doğrudan da vəzifələr sanki kimin hara xoşuna gəlir prinsipi ilə zəbt edilmişdi. Hazırda olan peşəkar dövlət idarəetməçiliyinin fonunda onlar nə deyə bilər? Ortada müqayisə aparmaq üçün alternaiv olmadığından susmağa üstünlük verirlər. Onların buraxdığı səhvlər nəticəsində parçalanan Azərbaycanı qüdrətli bir dövlət halına gətirən məhz bu iqtidar olub, bunu yaxşı bilirlər".

***"Resurs" Analitik İnformasiya Mərkəzi***

# Ümidlər və proqnozlar: Ərdoğanın Vaşinqton səfərinin nəticələri

***Türkiyənin dövlət başçısının Amerikaya səfərindən konkret nəticələr gözləyənlər az deyildi. İki ölkə arasında mövcud olan problemlər də çoxdur. Onların həll edilməsi hər iki ölkəyə faydalı olardı. Bununla yanaşı, Yaxın Şərqdə geosiyasi-hərbi vəziyyət qeyri-müəyyənliyini saxlamaqdadır. Türkiyənin Suriya ilə bağlı Amerika və Rusiya ilə razılaşdırdığı məqamların heç də hamısına əməl olunmadı. Belə bir mürəkkəb və ziddiyyətli şəraitdə Ankara diplomatik-siyasi fəallığını artırmalı idi. Bu kontekstdə Rəcəb Tayyib Ərdoğanın Amerikaya səfəri həm də strateji əhəmiyyət kəsb edirdi. Yayılan informasiyalara görə, tərəflər arasında hansı məsələlərin razılaşdırıldığı haqqında məlumatlar gizli saxlanılır. Bununla yanaşı, Donald Trampın Ərdoğana "mən sizin heyranınızam" deməsi daha çox müzakirə edilir. Bütün bunların fonunda səfərin geosiyasi aspektdə təhlilinə ciddi ehtiyacın olduğunu düşünürük.***




## Problemlər: terror, Suriya böhranı, S-400 sistemləri və F-35 qırıcıları...

Bir sıra ekspertlər Türkiyə Prezidentinin Birləşmiş Ştatlara səfərini dünyanın mühüm siyasi hadisəsi kimi təqdim edirdi. Müzakirələrin faktiki olaraq Yaxın Şərqin geosiyasi mənzərəsini müəyyən edəcəyini proqnozlaşdırırdılar. Buna səbəb hər iki tərəfin səfər ərəfəsi aktual hesab etdikləri məsələləri açıq deməsi ilə bağlı idi. Həmin məsələlər isə doğrudan da olduqca əhəmiyyətli məqamlarla bağlıdır.

Türkiyəni maraqlandıran başlıca mövzu terrorla mübarizə və FETÖ-nün ABŞ-dakı mövcudluğuna son qoyulması idi. Amerika və Rusiyanın verdikləri vədlərə baxmayaraq, YPG/PKK qruplaşması Suriyada yaradılması nəzərdə tutulan təhlükəsizlik zonasından kənara çıxarılmayıb. Terrorçular oradan Suriya Milli Ordusuna və Türkiyə əsgərlərinə hücumlar edirlər. Daha pisi isə odur ki, dinc insanlara qarşı terror törətməkdə davam edirlər. Bunun nəticəsində çox sayda vətəndaş həyatını itirib. Tel Abyadda, Rasulaynda və Qamışlıda törədilən terror aktları buna misaldır.

Bunlardan başqa, Türkiyə İŞİD-lə mübarizdə əldə etdiyi nailiyyətləri Amerika rəhbərliyinə konkret dosyelər şəklində təqdim etməyi nəzərdə tutmuşdu. Onların sırasında Suriyadakı YPG/PKK-nın liderlərindən olan Mazlum Kobani ilə bağlı ABŞ kəşfiyyatının hazırladığı dosye də vardır. Maraqlıdır ki, Türkiyə Amerikaya onun öz kəşfiyyatının hazırladığı dosyeni verib.

Nəhayət, Türkiyə Prezidenti D.Trampdan ABŞ-da mühacirət həyatı yaşayan və 2016-cı il iyulun 15-də Türkiyədə baş verən hərbi çevriliş cəhdinin təşkilində ittiham olunan Fətullah Gülənin ekstradisiya edilməsini istəyəcəkdi. FETÖ məsələsi də Ankara üçün çox önəmlidir. Ölkəni hələ də onlardan tam təmizləmək mümkün olmayıb. FETÖ-nün yeni planlarının qarşısını almaq üçün onu tamamilə zərərsizləşdirmək lazımdır.

Amerika tərəfi isə səfər öncəsi yaydığı informasiyalarda S-400-lər və F-35-lər mövzusunun öndə olduğuna vurğu etmişdi. Hətta bir ABŞ rəsmisi deyib ki, S-400-lər həll olunsa digər məsələlər sürətlə həllini tapacaq. Buraya "erməni soyqırımı" sənədinin geri çəkilməsini, 100 milyard dollarlıq ticari sazişin imzalanmasını və F-35-ləri aid etmək olar. Təbii ki, Suriyada terrorla mübarizə də əhəmiyyətli mövzulardan biri kimi qəbul edilirdi.

Bəs müzakirələr necə keçib və hansı razılıqlar əldə edilib? KİV-ə sızan məlumatlar göstərir ki, tərəflər konkret razılıqdan bəhs etmirlər. Onların hər biri sanki öz mövqelərini qoruyurlar. Bununla yanaşı, bir-birinin geosiyasi dəyərini və əməkdaşlıq zərurətini tam dərk edirlər. Məsələn, D.Tramp R.T.Ərdoğanla görüşdən sonra keçirdikləri brifinqdə açıq deyib ki, Türkiyə çox önəmli müttəfiq və NATO-da tərəfdaşdır. Türkiyə Prezidentinə də böyük hörməti var. Hətta türk ordusunun hazırlıq və təchizat baxımından dünyanın ən güclüsü olduğunu ifadə edib. Doğrudur, bunu da ona bağlayıb ki, bu ordunun təchizatını Amerika edir. Belə çıxır ki, D.Tramp dolayısı ilə çatdırıb ki, Rusiya silahları Amerikanın silahları ilə rəqabətə girə bilməz. Bu səbəbdən Türkiyə Vaşinqtonla münasibətlərini korlamasa yaxşıdır.

D.Tramp S-400-lərlə bağlı verilən suala cavabında konkret fikir bildirməyib. Sadəcə deyib ki, razılığın əldə olunacağına ümidlidir. Ticarətin 100 milyard dollar həcminə çatdırılmasını isə hər iki tərəfin arzuladığını dilə gətirib. Ancaq D.Trampın ən çaşdırıcı cavabı SDQ komandanı M.Kobani ilə bağlı olub. Türk jurnalist Ankaranın başına 4 milyon pul qoyduğu bu terrorçu ilə əlaqə saxlamaqda davam edib-etmədiklərini soruşanda, ABŞ Prezidenti son olaraq R.T.Ərdoğanla görüş olan gün onunla danışdığını deyib və əlavə edib ki, o, Türkiyə Prezidenti ilə də işləyir. Bununla Amerika Prezidenti növbəti dəfə siyasi səhvə yol verib: o, müttəfiq dediyi bir ölkənin başçısı ilə terror təşkilatına rəhbərlik edənlərdən birini bərabər tutub. Təbii ki, Türkiyə bununla razılaşmaz, lakin o da məlumdur ki, Vaşinqtonun nə edəcəyi bəlli deyil.

Türkiyə Prezidenti də maraqlı fikirlər səsləndirib. O, D.Trampın yanında deyib ki, yazdığı iki məktubu özünə qaytarıb. Bu o deməkdir ki, Ankara rəsmi olaraq həmin məktubları qəbul etmir və onun üçün əhəmiyyəti yoxdur. Bundan başqa, Türkiyə İŞİD-lə mübarizə apardığı kimi, YPG/PKK ilə də mübarizəsini davam etdirməkdə qərarlıdır. Həmin kontekstdə maraqlıdır ki, D.Tramp deyib ki, Türkiyə "etdiklərini etməyə davam edəcək".

## Fikir ayrılıqları: qeyri-müəyyənlik qalmaqdadır

Bunlardan əlavə olaraq, Türkiyə İŞİD-çiləri vətəndaşları olduqları ölkələrə göndərməkdə davam edəcək. D.Tramp da bunu dəstəkləyib və deyib ki, Ankara miqrantlarla bağlı 40 milyard dollar xərcləyib ki, bu da çox böyük rəqəmdir. Avropa isə 3 milyard avroya söz verib, ancaq real nəticə yoxdur. Bu səbəbdən Türkiyənin həmin mövzuda narahatlığı başa düşülməlidir.

FETÖ ilə də bağlı R.T.Ərdoğan bu təşkilatın rəhbərinin Ankaraya təslim edilməsini gündəmə gətirdiyini bəyan edib. Ancaq Vaşinqtondan konkret cavab yoxdur. Görünür, Vaşinqton bu məsələdə güzəştə getmək istəmir. Əvəzində, respublikaçı senator Lindsi Qrem qondarma "erməni soyqırımı"nı tanıyan qətnamənin qəbul edilməsinin əleyhinə olduğunu bildirib. L.Qrem qətnamənin qəbulunu bloklamaq hüququndan istifadə edib. O da maraqlıdır ki, antitürkiyə mövqeyi ilə tanınan L.Qrem səbəb kimi onu göstərib ki, bu məsələ senatorların işi deyil, tarixçilərin işidir. Konqres tarix yaratmaqla məşğul olmamalıdır. Bununla həm erməni diasporuna böyük zərbə vurublar və həm də bir daha göstəriblər ki, reallıqda "soyqırımı" müzakirələri siyasi məqsədlər üçün istifadə edilən bir oyundur. Onu gah bu, gah da digər istiqamətdə istifadə etmək olar.

Vurğulanan məqamlar R.T.Ərdoğanın Amerika səfərinin geosiyasi aspektdən nə qədər əhəmiyyətli olduğunu göstərir. Tərəflərin konkret razılıqlardan danışmaması isə təsdiqləyir ki, hələ ABŞ-Türkiyə münasibətləri müəyyən dərəcədə qeyri-müəyyənliyini saxlayacaq. Bu baxımdan Türkiyə Prezidentinin iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açmaq istəyi ilə bağlı açıq danışması ekspertlərin marağına səbəb olub. Konkret olaraq, bu istiqamətdə hansısa addım atılıbmı? Məlum deyil. Ancaq aydın görünür ki, hər iki dövlət mövcud vəziyyətdən razı deyil. Onlar arada olan problemləri həll etməkdə qərarlıdırlar. Lakin hələlik ortaq mövqe mövcud deyil.

Bu nöqteyi-nəzərdən Amerika-Türkiyə münasibətlərinin Yaxın Şərqin geosiyasi dinamikasına necə təsir edə biləcəyi barədə konkret proqnoz vermək hələlik çətindir. Deməli, konkret olaraq, Suriya məsələsində Ankara ilə Vaşinqton arasında ziddiyyətlər qalacaq. O cümlədən terrorla mübarizədə fikir ayrılığı davam edir. Yəni Amerika YPG/PKK-ya yardım etməyi kənara qoymur. Əgər Türkiyə yenidən hərbi əməliyyatlara başlasa, bu məsələ tərəflər arasında kəskin narazılığa səbəb ola bilər.

Digər tərəfdən, Amerika üçün Türkiyədən uzaqlaşmaq qətiyyən sərfəli deyil. Geosiyasi, hərbi, təhlükəsizlik, iqtisadi və siyasi baxımdan ABŞ üçün Türkiyə çox önəmlidir. Ayrıca, NATO-nun taleyi indi xeyli dərəcədə Türkiyədən asılıdır. Görünür, burada Avropa İttifaqı-Türkiyə münasibətlərini də nəzərə almaq lazımdır. Həmin kontekstdə Rusiya-Türkiyə əlaqələrinin də əhəmiyyəti danılmazdır.

Ankara-Moskva əlaqələri son zamanlar sürətlə inkişaf edir. O cümlədən hərbi-texniki və nüvə əməkdaşlığı sahəsində irəliləyiş vardır. Ankara bu prosesdən narazı deyil. Moskva üçün də həmin məsələ aktualdır. Rusiyalı ekspertlər hesab edirlər ki, Türkiyə geosiyasi aspektdə Moskvaya çox lazımdır. S-400-lərin türklərə satılması təsadüfi deyil. Bunlara baxmayaraq, bu iki böyük dövlətin Yaxın Şərqdə maraqları bir çox məqamlarda toqquşur. Ekspertlər də həmin məqamı vurğulayırlar. Belə görünür ki, Ankaranın Moskva istiqamətində də çətinlikləri yox deyildir. Xüsusilə Suriya məsələsində terrorçuların təhlükəsizlik zonasından çıxarılmaması Türkiyəni narahat etməkdədir.

Beləliklə, R.T.Ərdoğanın ABŞ-a səfəri bir çox məsələlərə gözlənilən aydınlığı gətirmədi. İki dövlət arasında olan problemlər həllini tapmadı. Yaxın Şərqlə bağlı fikir ayrılığı qalmaqdadır. Ancaq bu da bir nəticədir. Məlum olur ki, ABŞ və Rusiya Suriya oyunlarını davam edirlər. İsrail də açıq bildirir ki, YPG-yə dəstək verə bilər. Türkiyə və İranın öz maraqları olduğu sirr deyil. O halda Suriyada vəziyyətin normallaşması mürəkkəb vəzifə olaraq alır. Bu isə o deməkdir ki, hələlik təxribatlar, silahlı toqquşmalar, riskli davranışlar gözləniləndir. Ayrıca, terror təşkilatları fəaliyyətlərini davam etdirəcəklər. Onları regiondan çıxarmaq asan olmayacaq. Yəni deyə bilərik ki, Yaxın Şərqdə savaş davam edir...

***Newtimes.az***

# Fermerlərə subsidiyalar hansı formada veriləcək?

***A**qrar Subsidiya Şurası Prezident İlham Əliyevin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndinə müvafiq olaraq, 2020-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib. Nəticədə, bitkiçilik sahəsində tətbiq edilən subsidiyalar əkin, məhsul və toxum üzrə olmaqla, yenilənəcək.*




Bu yenilik fermerlərin daha çox subsidiya almalarına səbəb olacaq. Bu baxımdan, növbəti ilin dövlət büdcəsindən sözügedən istiqamət üzrə cari ildəkindən daha çox vəsaitin yönəldilməsinə ehtiyac yaranacaq. Bildirilir ki, gələn il bu sahəyə dövlət büdcəsindən 432 milyon manatın xərclənəcəyi proqnozlaşdırılır ki, bu da, 2019-cu il üzrə nəzərdə tutulandan cəmi 9 milyon manat və ya 2 faiz çoxdur. Bir sözlə, hesab edilir ki, ayrılacaq vəsait yetərli olmayacaq.

İlk növbədə, onu bildirək ki, bitkiçilik sahəsində subsidiyaların hesablanması şura tərəfindən təsdiq edilən əmsalın baza məbləğinə (200 manata) vurulması ilə aparılacaq.

İllik subsidiya üçün ən yüksək əkin əmsalı zəfəran bitkisi, bağın salındığı ildən ilk 4 il ərzində intensiv qərzəkli meyvə bağları (2 əmsal və ya 1 hektar üçün 400 manat), bağın salındığı ildən ilk 4 ildə üzüm (3 əmsal və ya 1 hektar üçün 600 manat), plantasiyanın salındığı ildən ilk 7 ildə çay (3,5 əmsal və ya 1 hektar üçün 700 manat ) və qərzəklilər istisna olunmaqla, intensiv meyvə bağlarına (4 əmsal, yəni 1 hektarı üçün 800 manat) tətbiq ediləcək. Yerfındığı, qarabaşaq 0,9, buğda, günəbaxan, giləmeyvəlilər 1, bostan bitkiləri, pambıq 1,1, kartof, tərəvəz, bağın salınmasından 4 ildən sonrakı üzüm, plantasiyanın salınmasından 7 il sonrakı çay, qərzəkli də daxil olmaqla, salınmasından 4 il sonrakı intensiv meyvə bağları 1,2, çəltik, tütün və şəkər çuğunduru 1,4 əmsalla qiymətləndiriləcək. Ancaq bəzi bitkilər üzrə subsidiyanın verilməsi üçün əkin əmsalı şərt olmayacaq. Məsələn, çəltik, pambıq, tütün, fındıq, çay üçün nəzərdə tutulan subsidiyalar ancaq ixtisaslaşmış regionlara şamil ediləcək. Bununla da, Aqrar Subsidiya Şurasının qərarına görə, çəltik üzrə əkin əmsalı Ağdaş, Ağsu, Astara, Biləsuvar, Göyçay, Lənkəran, Masallı, Salyan, Samux, Ucar, Yevlax, Şəki və Zərdab rayonlarına, pambıq üzrə əkin əmsalı Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Goranboy, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Tərtər, Ucar, Yevlax və Zərdab rayonlarına, tütün üzrə əkin əmsalı Ağstafa, Balakən, Gədəbəy, Goranboy, İsmayıllı, Lerik, Masallı, Oğuz, Qax, Qazax, Qəbələ, Şəki, Tovuz, Yardımlı və Zaqatala rayonlarına, fındıq üzrə əkin əmsalı Ağstafa, Balakən, Zaqatala, Xaçmaz, Qax, Qəbələ, Quba, Şəki, Oğuz, Qusar, Qazax, Şabran və İsmayıllı rayonlarına, çay üzrə əkin əmsalı Astara, Lənkəran, Masallı və Zaqatala rayonlarına aid ediləcək, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul olunacaq.

Üzüm və intensiv meyvə bağları üzrə subsidiyalar 2019-cu ildən başlayaraq, salınmış bağlara şamil ediləcək. Digər meyvə bağlarına görə əkin subsidiyası 1,2 əmsalı üzrə veriləcək. Subsidiya veriləcək digər meyvə bağlarında 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması şərti müəyyənləşib. Dolayısıyla fermerlərə indiyədək verilən yanacaq və motor yağlarına, buğda və çəltik əkininə, təkrar əkinlərə görə və mineral gübrələrin, biohumusun və pestisidlərin güzəştli qiymətə alınması ilə bağlı birbaşa və dolayı subsidiyaların birləşdirilərək, becərilən sahənin hər hektarına olmaqla, əkin subsidiyası formasında verilməsi nəzərdə tutulub.

Subsidiyalar fermerlərə nağdsız şəkildə, yeni kartlar vasitəsilə veriləcək. Fermerlər bu kartın balansında olan məbləğin yalnız 25 faizini nağd, qalan 75 faizini isə nağdsız şəkildə istifadə edə biləcəklər. Subsidiya vəsaitlərin fermerlərin bank kartlarına (fermer kartı) köçürüləcək.

Ölkə başçısının Fərmanına əsasən, 50 hektardan yuxarı sahəsi olan kənd təsərrüfatı kooperativlərinə verilən əkin subsidiyasının miqdarı 10 faiz artıq olacaq. Heyvandarlıq sahəsinə gəlincə, burada subsidiyaların verilməsinə əvvəlki məbləğ və qaydada davam ediləcək.

Belə görünür ki, sözügedən yenilik bu sahədə neqativ halların, eyni zamanda, bu istiqamətdə daha çox dövlət vəsaitinin xərclənməsinin qarşısını almaqla, subsidiyaların təyinatı üzrə səmərəli istifadəsinə imkan yaradacaq. Söhbət ondan gedir ki, baza məbləğində fərqli əmsalların tətbiqi tələbata uyğun bitkilərin düzgün ərazilərdə becərilməsi və bu istiqamətdə fermerlərin fəaliyyətinin stimullaşdırılması məqsədi daşıyır. Bununla da, əkin subsidiyaları üzrə əmsalların kənd təsərrüfatının prioritetləri üzrə müəyyən edilməsi, həmçinin, fermerə subsidiyanın 75 faizindən yalnız nağdsız formada yararlanmaq imkanının verilməsi bu sahədə sui-istifadə hallarının qarşısını almış olacaq. Nəticə etibarilə, yeni mexanizm fermerlərin daha çox subsidiya almalarına deyil, səmərəliliyin artırılmasına hesablanıb.

***"Səs" analitik Qrupu***

## Moskvada X Azərbaycan-Rusiya Regionlararası Forumu keçiriləcək

**N**oyabrın 22-23-də Moskvada növbəti Azərbaycan-Rusiya Regionlararası Forumu keçiriləcək. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iki gün davam edəcək tədbirdə Azərbaycan və Rusiyanın dövlət rəsmilərinin, deputatların, biznes dairələri nümayəndələrinin iştirakı nəzərdə tutulur. Forum çərçivəsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının geniş iclası, sənaye, turizm, kənd təsərrüfatı və humanitar sahələr üzrə dəyirmi masalar təşkil ediləcək, forumun plenar iclası keçiriləcək. Azərbaycan nümayəndə heyətinin Moskvaya səfəri çərçivəsində Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılışı olacaq.

## Harvard Universitetinin rəsmi saytı Azərbaycandan yazdı



**A**BŞ-ın Harvard Universitetinin rəsmi saytında Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyevin müəllifi olduğu "Qara dəniz hövzəsinin sinergiyası: əməkdaşlıq potensialı və geosiyasi, geoiqtisadi risklərin yeni dinamikası" sərlövhəli məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, ingilis dilində yayılan məqalədə regional təhlükəsizlik məsələlərinə toxunulub. Müəllif vurğulayıb ki, qlobal geosiyasi gərginliyin artması fonunda regional təhlükəsizliyin təmin edilməsi problemi daha da aktuallaşır. Bu qlobal sistemlər kontekstində Qara dəniz hövzəsi bölgəsi "Bir kəmər, bir yol" layihəsi çərçivəsində coğrafi və iqtisadi cəhətdən Cənub-Şərqi Avropanı Xəzər hövzəsi və Çin ilə birləşdirir. Bu, Cənubi Qafqaz dövlətləri (əsasən Azərbaycan və Gürcüstan) ilə Şərqi Avropa ölkələri (ilk növbədə, Ukrayna) arasında əsaslı birləşdirici körpüdür".

Məqalədə vurğulanıb ki, Qara dəniz hövzəsi bölgəsində bəzi beynəlxalq hüquq subyektləri şüurlu şəkildə güclərindən istifadə edirlər. Bununla da bölgədə bir neçə risk ocağı yaranıb və nəticədə iqtisadi əməkdaşlığın inkişafına əngəllər mövcuddur. Qara dəniz hövzəsində əlavə hərbi qüvvələrin cəmləşməsi geoiqtisadi sahədə əməkdaşlığın inkişafına ciddi maneə kimi qiymətləndirilir. Lakin əslində bölgə və qonşu bölgələrin əməkdaşlığı üçün böyük tarixi, geosiyasi, geoiqtisadi, nəqliyyat, enerji potensialı var. Bunu Azərbaycan və Ukrayna arasındakı əməkdaşlıq nümunəsində görmək olar. 2013-cü ilə qədər Azərbaycan ilə Ukrayna arasındakı ticarətin həcmi 1 milyard ABŞ dollarını ötüb. Ancaq bu bölgədəki məlum hadisələr və silahlı qarşıdurmalar bu dinamikanın inkişafına son dərəcə mənfi təsir göstərdi. 2015-ci ilin sonunda iki ölkə arasındakı ticarət həcmi 333 milyon ABŞ dolları təşkil edib, lakin sonrakı 3 il ərzində ölkələrimiz bu rəqəmi 2,5 dəfə artırmağı bacarıb və 2018-ci il ərzində 829 milyon ABŞ dolları səviyyəsinə çatıb.

## Təhmin Bəkirov: "Bölgələrimizlə tanışlıq bizim üçün ən böyük hədiyyədir"



**Z**ərdab rayonu Pərvanlı kənd tam orta məktəbin XI sinif şagirdi Təhmin Bəkirov "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində noyabrın 18-də Quba-Qusar-Xaçmaz bölgələrinə yola salınan 40 nəfərlik qrupun üzvlərindən biridir.

Yolasalma mərasimində sevincini AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşən Təhmin Bəkirov deyib: "Çox sevinirəm. Sevinirəm ki, arzusunda olduğum bölgələrə gedirəm. Doğma Azərbaycanımızın ən dilbər guşələrindən olan Quba-Qusar-Xaçmaz bu gün həm də gözəl payız libasındadır. Belə bir vaxtda tanış olacağım bölgələr, sözsüz ki, məndə, eləcə də səfər yoldaşlarımda unudulmaz xatirələr yaşadacaq. Bu rayonları gəzmək, görməli yerləri ilə tanış olmaq bizim üçün ən böyük hədiyyədir. Səfər çərçivəsində o yerlərin nəinki bu günü, tarixi keçmişi barədə də zəngin bilgilər qazanacağıq".

## Professor Mətin Doğan: Xocalı soyqırımı haqqında həqiqətlərin dərsliklərə salınması mühüm məsələlərdəndir



**X**ocalı soyqırımı tarixdə türk-müsəlman coğrafiyasında törədilən ən ağır hadisələri mahiyyətcə təsdiq edən və müasir dövrdə törədilmiş soyqırımıdır. Bu soyqırımın təfərrüatlarını dünya ictimaiyyətinə çatdırmaq və gələcək nəsillərə ötürmək çox vacibdir.

Bu fikirləri Yıldırım Bəyazid Universitetinin təsisçisi, professor Mətin Doğan Ankarada keçirilən Xocalı soyqırımı təqdimat mərasiminin əhəmiyyətini AZƏRTAC-a şərh edərkən deyib. Professor bildirib ki, Xocalı soyqırımı barədə həqiqətlərin dərsliklərə salınması ən mühüm məsələlərdən biridir. Qeyd edək ki, Türkiyədə fəaliyyət göstərən Tarixdaş Millətlər və Cəmiyyətlər Dərnəyi ilə Ankaradakı Yıldırım Bəyazid Universiteti (YBU) arasında imzalanan anlaşmaya əsasən YBU ərazisində Xocalı soyqırımı Park-abidə kompleksi salınır.

## Klassik cazın sevilən siması Ceymi Devis Bakıda çıxış edəcək




**N**oyabrın 23-də Beynəlxalq Muğam Mərkəzində klassik cazın sevilən simalarından biri Ceymi Devis ilk dəfə olaraq Bakıda konsert proqramı ilə çıxış edəcək. Dərin, güclü, məxməri bariton səsə sahib olan ifaçını bəzən şokoladlı səs kimi də təqdim edirlər. Muğam Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Bakıdakı konsertində tamaşaçılara unudulmaz caz gecəsi təqdim edəcək sənətçinin proqramı caz üslublarının qarışından ibarət olacaq. O, bir üslubdan digərinə asanlıqla keçid edərək populyar kompozisiyalardan klassik ariyalara qədər ifa edir. Bu ifaların hər birinə isə öz müəllif yanaşmaları və şəxsi aranjirovkalarının sayəsində qəblərə yol tapır.

# Azərbaycan uğurlu inkişaf modelinə malikdir

*Dövlət başçısının Sərəncamı ilə Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə dövlət büdcəsindən 19 430 000 (on doqquz milyon dörd yüz otuz min) manat ayrılıb*

***Son illərdə dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülüb. Bu məqsədlə müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və bu gün onun tabeliyində "ASAN xidmət" mərkəzləri xidmət göstərir ki, bu da, qısa müddətdə özünü doğrultdu.***




Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir. Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli kimi olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bu, onu göstərir ki, Azərbaycan uğurlu inkişaf modelinə malik dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün Azərbaycan, nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən, əqli məhsullarını ixrac edir: "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir". Müasir dövrümüzdə "ASAN xidmət" dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Azərbaycanın "ASAN xidmət" modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var. "ASAN" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülüb. Bu modeldən dünya ölkələri bəhrələnir. Dövlət xidmətlərinin səmərəliliyinin artırılması hazırda bir çox ölkələr üçün önəmli çağırışlardan biri olduğundan, tərəfdaş ölkələrlə "ASAN xidmət" modelinin tətbiqi, təcrübələrin paylaşmağı istiqamətində fəal əməkdaşlıq aparılır. Beynəlxalq qabaqcıl təcrübə kimi "ASAN xidmət" modeli Afrika ölkələri üçün təqdim olunub. Artıq Əfqanıstanda eyniadlı qurum təsis edilib.

Bu gün ölkəmizdə mərkəzlərin sayı artmaqdadır. Hazırda 15 mərkəz fəaliyyət göstərir. Onlardan beşi Bakıda, onu isə Azərbaycanın bölgələrindədir. Bu günlərdə dövlət başçısı Ağcabədi rayonunda "ASAN xidmət" Mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 19 430 000 (on doqquz milyon dörd yüz otuz min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılıb.

Ümumiyyətlə, bu gün Azərbaycanda gedən bütün işlər müasir səviyyədə həyata keçirilir. Hər görülən iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin və həyatın firavanlığına yönəlib. Buna Azərbaycanın bütövlükdə inkişafı imkan verir. "Ölkəmiz müasirləşir, inkişaf edir. "ASAN xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar" deyən Cənab İlham Əliyev korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə də "ASAN xidmət"in çox mühüm rol oynadığını vurğulayıb. Qeyd edək ki, indiyə qədər "ASAN xidmət" mərkəzlərinə 33 milyondan çox müraciət edilib. Vətəndaşlara göstərilən xidmətlərin məmnunluq dərəcəsi 98-100% arasında dəyişir. Bu mərkəzdə yeni texnologiyalar və innovasiyalar tətbiq olunur. Bu, innovasiya, yeni fikrin və yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Büdcə Azərbaycan vətəndaşlarının marağı çərçivəsindədir"



"2020-ci ilin dövlət büdcəsi müstəqilliyimiz tarixində həcm etibarilə ən böyük büdcədir. Bunun özü çox sevindirici haldır. Digər tərəfdən dövlət büdcəsinin həm təqdimatı, tərtibi baxımından, həm də iqtisadi və funksional tərtib olunması baxımından çox mütərəqqi addımlar atılır" Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, millət vəkili Aydın Hüseynov deyib.

"İlk növbədə qeyd edək ki, dövlət büdcəsi hələ hökumətə təqdim olunmamışdan öncə Maliyyə Nazirliyinin rəsmi saytında yerləşdirilmişdi. Bu çox mühüm bir hal idi. Nə baxımından? Bütün vətəndaşlarımızın, ictimaiyyətin, eləcə də istənilən insanların həmin büdcə ilə tanış olmaq imkanları var idi. Çünki dövlət büdcəsi bütün Azərbaycan vətəndaşlarının marağı çərçivəsindədir. Bununla belə büdcəmiz sosial yönümlü və investisiya yönümlü büdcədir. 2019-cu ildə olduğu kimi 2020-ci ilin dövlət büdcəsi də yeni büdcə qaydaları ilə tərtib olundu. Bu nə deməkdir? Xərclənə bilən neft gəlirləri müəyyənləşir, eyni zamanda icmal büdcənin xərclərinin yuxarı həddi müəyyənləşir. Digər tərəfdən büdcə inflyasiya nəzərə alınmaqla tərtib olunmuşdu. Çünki 2020-ci ildə təxminən 4 faiz ətrafında inflyasiya proqnozlaşdırılırdı ki, bu da yeni ilin büdcəsində nəzərə alınmışdı. Sosial xərclərə ayrılan maliyyə vəsaiti 2019-cu illə müqayisədə daha artıq proqnozlaşdırılıb. 2020-ci ildə sosial xərclərə 2,6 milyard vəsait xərclənəcək.

Bütövlükdə bunlar investisiya yönümlü xərclərin stimullaşmasının təmin olunacağı üçün bizdə əminlik yaradır. Digər tərəfdən dövlət büdcəsinin tərtibi onu göstərir ki, iqtisadi artımımız çox qənaətbəxş olacaq. Bu isə ümumi daxili məhsulun təxminən 3 faiz civarında artımını səciyyələndirir. Ümumiyyətlə dövlət büdcəsinin həm gəlir, həm də xərc hissəsinin proqnozlaşdırılması o ölkənin iqtisadi göstəricilərinin bir nümunəsidir. 2020-ci ilin dövlət büdcəsinin gəlirləri 24,1 milyard manat nəzərdə tutulub, xərcləri isə 26,9 milyard manat nəzərdə tutulub. Büdcə kəsiri isə 3,3 faiz civarında olacaq"-deyə, A.Hüseynov fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

# Ərdoğan: Saxta "erməni soyqırımı" iftirası ilə günahlandırılırıq




Haqqın və ədalətin, məzlumun və insanlığın yanındayıq. Bütün bunlara baxmayaraq, Türkiyə saxta "erməni soyqırımı" iftirası ilə günahlandırılır. AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Konqresində ifadə edib. İnsan haqlarının qorunması, o cümlədən qaçqın və məcburi köçkünləri himayə etmələri kimi məsələlərdən danışan dövlət başçısı bildirib ki, Türkiyənin öz təhlükəsizliyini qoruduğu üçün təzyiqlərə məruz qalması ən böyük ədalətsizlikdir.

# Parisə səfəri çərçivəsində Mədəniyyət naziri Əbülfəs Qarayev İSESKO-nun Baş direktoru ilə görüşüb

Parisdə UNESKO-nun Baş Konfransının 40-cı sessiyası çərçivəsində quruma üzv ölkələrin Mədəniyyət nazirlərinin Forumu keçirilir. Forum çərçivəsində Azərbaycan Mədəniyyət naziri Əbülfəs Qarayev İSESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-İSESKO əlaqələri, əməkdaşlığın hazırkı vəziyyəti və gələcək perspektivləri müzakirə edilib.



Nazir Əbülfəs Qarayev təşkilatın Baş direktorunu vəzifəyə təyin edilməsi münasibətilə təbrik edib. Görüşün İSESKO-nun Baş direktoru vəzifəsinə təyin edildikdən sonra ilk görüş olduğunu bildirərək, belə görüşlərin davamlı olacağına inandığını qeyd edib.

Nazir ötən dövr ərzində Azərbaycan-İSESKO əlaqələrinin inkişafı barədə qısa məlumat verərək diqqətə çatdırıb ki, bu əməkdaşlığın inkişafında Azərbaycanın Birinci vitse-prezidenti, İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın və şəxsən Prezident İlham Əliyevin böyük töhfələri olubdur. Azərbaycan İSESKO ilə çoxsaylı beynəlxalq layihələr həyata keçirmiş, 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərləri İslam Mədəniyyətinin Paytaxtı seçilmiş, 2009-cu ildə Bakıda İslam ölkələrinin Mədəniyyət Nazirlərinin Toplantısı, 2015-ci ildə İSESKO-nun 12-ci Baş Konfransı və İcraiyyə Şurasının 36-cı iclası keçirilmişdir.

İSESKO ölkə başçısının qlobal təşəbbüsü olan və hazırda BMT tərəfindən qəbul olunan "Bakı Prosesi"nin əsas tərəfdaşlarındandır və bu təşəbbüs çərçivəsində 2011-ci ildən təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında rəsmi tərəfdaş qismində iştirak edibdir.

Azərbaycan-İSESKO əlaqələrinin yüksək səviyyədə olduğu vurğulanaraq, yeni mərhələdə də bu əlaqələrin davamlı olaraq inkişaf edəcəyinə əminlik ifadə edilib. İSESKO-nun Baş direktoru nazir Əbülfəs Qarayevə təşəkkür edərək, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə və özündə yeni elementləri ehtiva edəcəyinə əmin olduğunu bildirib. Əlaqələrin inkişafında ölkə rəhbərliyinin rolunu yüksək qiymətləndirib. O, həmçinin İSESKO-da aparılan islahatlar və bir çox layihələr barədə məlumat verib. Qeyd edib ki, bu gün İSESKO və UNESKO arasında 5 layihənin həyata keçirilməsi ilə bağlı sənəd imzalanacaqdır. Bu layihələrin həyata keçirilməsi ilə bağlı digər beynəlxalq qurumlarla da iş aparılır.

Əbülfəs Qarayev İSESKO-da aparılan islahatları təqdir etdiyini bildirib. Nazir Bakı şəhərinin UNESKO tərəfindən "Yaradıcı şəhər" elan edilməsi barədə məlumat verərək, gələcəkdə İSESKO çərçivəsində də bənzər layihələrin həyata keçiriləcəyini qeyd edib. O, həmçinin İSESKO çərçivəsində irsin qorunması ilə bağlı layihə həyata keçirilə biləcəyini və bu layihə vasitəsilə İslam dünyasında mədəni irsin qorunmasına töhfə veriləcəyini diqqətə çatdırıb. Nazir İSESKO Baş direktorunu Azərbaycana səfər etməyə dəvət edib və dəvət məmnuniyyətlə qəbul olunub.

# Azərbaycanla Çin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun təşviqi məsələlərini müzakirə edib

Çin nümayəndə heyəti Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında nəqliyyat üzrə işçi qrupun yaradılması ilə əlaqədar ölkəmizə səfərə gəlib. Səfər çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Çinin Nəqliyyat Nazirliyinin Nəqliyyat Xidmətləri Departamentinin baş direktoru Xu Yahuanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında nəqliyyat və logistika sahələrində əməkdaşlığın genişləndirilməsi, o cümlədən "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində həyata keçirilən yükdaşımalarında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun təşviqi məsələləri müzakirə edilib.

# BSU-da Beynəlxalq Tolerantlıq Günü qeyd olunub

Bakı Slavyan Universitetində Azərbaycan multikulturalizmi və ölkəşünaslıq kafedrasının təşkilatçılığı ilə 16 Noyabr-Beynəlxalq Tolerantlıq Gününə həsr olunmuş dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə açan Tərbiyə işləri üzrə prorektor Xanım Sultanova Azərbaycanda tolerantlığın dərin köklərinin olduğunu, ölkəmizdə yaşayan insanların tarix boyu bir-birinin inam və etiqadına, etnik müxtəlifliyinə hörmət və ehtiramla yanaşdığını bildirib.



Azərbaycan multikulturalizmi və ölkəşünaslıq kafedrasının müdiri İbrahim Quliyev çıxışında Beynəlxalq Tolerantlıq Gününün yaranması və bu günün tarixi haqqında məlumat verərək, Azərbaycanın hazırda bütün dünyada tolerant ölkə kimi tanındığını diqqətə çatdırıb. Ulu Öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub-saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər barədə söhbət açan İ.Quliyev Azərbaycanın bu gün müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisi olduğunu deyib. İ.Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tolerantlıq və multikulturalizmin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıb.

Tədbirdə Azərbaycan multikulturalizmi və ölkəşünaslıq kafedrasının dosenti Sevda Axundova "Heydər Əliyev və tolerantlıq", kafedranın baş müəllimi Günay Vəliyeva "BSU-da tolerant mühit", kafedranın müəllimləri Nərmin Elyasova "Tolerantlıq və onun növləri", Səbinə Məmmədova "Azərbaycanda tolerantlıq" mövzularında məruzələrlə çıxış ediblər. Tədbirin sonunda Diplomatiya və xarici siyasət kafedrasının müdiri, dosent Əsgər Əhməd, Azərbaycan multikulturalizmi və ölkəşünaslıq kafedrasının dosenti Hacı Rauf Azərbaycanda tolerantlıq mühiti və multikultural dəyərlər mövzusu ətrafında fikir və rəylərini bildiriblər.

**ZÜMRÜD**

# Ceyhun Salmanov: "ASAN xidmət" Azərbaycanın intellektual brendi kimi dünya ölkələrinin də diqqətini cəlb edir

"ASAN xidmət" fəaliyyətə başladığı vaxtdan onun tabeliyində olan mərkəzlərdə Yeni Azərbaycan Partiyasının (YAP) ərazi ilk partiya təşkilatları yaradılır. Bu gün Şəki "ASAN xidmət" mərkəzində partiyanın ərazi ilk təşkilatının yaradılması isə çox əlamətdar bir dövrə təsadüf edir. Noyabrın 17-də xalqımız Milli Dirçəliş Gününü bayram edib. Noyabrın 21-də isə YAP-ın yaranmasının 27 illiyi qeyd olunacaq. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov Şəkidə jurnalistlərə müsahibəsində deyib.



Dövlət Agentliyinin sədr müavini bildirib ki, tədbirdə YAP-ın ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrdə oynadığı rol barədə partiya sıralarına yeni qəbul olunan gənclərə ətraflı məlumat verilib, "ASAN xidmət"in Azərbaycanın intellektual brendi kimi, dünya ölkələrinin də diqqətini cəlb etdiyi vurğulanıb. "Tədbirdə, eyni zamanda, gənclər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan son islahatlar, bu islahatların həyata keçirilməsində gənclərin rolu və qarşıya qoyulan hədəflər barədə də geniş məlumatlandırılıblar",- deyə Ceyhun Salmanov bildirib.

# Azərbaycan Cənubi Koreya axtarış saytlarında ilk pillələrdə yer alıb



Azərbaycan və "Bakı" sözləri Cənubi Koreyanın ən böyük axtarış platformaları olan "Naver" və "Daum"da ən çox axtarılan sözlər siyahısında ilk pillələrdə yer alıb. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, cənubi koreyalılar tərəfindən Azərbaycana marağın artmasına ölkənin nüfuzlu "KBS" (Korean Broadcasting System) televiziya kanalında yayımlanan və populyar "Battle Trip" səyahət verilişinin Bakıda çəkilən proqramı səbəb olub.

Veriliş efirə getdikdən və "Youtube" kanalında da yayımlandıqdan sonra Azərbaycan haqda onlayn axtarışların sayı çoxalıb. Belə ki, Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə "Battle Trip" səyahət verilişi oktyabr ayında Qobustan və oradakı palçıq vulkanları, Nizami küçəsi, İçərişəhər, Heydər Əliyev Mərkəzi kimi turistlərin daha çox maraq göstərdiyi məkanlardan reportajlar hazırlayıb. Azərbaycan mətbəxi ilə də yaxından tanış olan qonaqlar Bakıdakı yerli və xarici restoranlarda da çəkilişlər aparıblar və milli mətbəx nümunələri ilə tanış olublar.

# "Layihə formatının hazırlanması" və "İctimaiyyətlə əlaqələr işinin təşkili"

*YAP Səbail rayon Könüllülər Birliyinin təşkilatçılığı ilə bu mövzularda təlim keçirilib*



YAP Səbail rayon Könüllülər Birliyinin təşkilatçılığı ilə "Layihə formatının hazırlanması", "Layihənin biznes planının hazırlanması və büdcəsinin tərtib olunması" və "İctimaiyyətlə əlaqələr işinin təşkili" mövzularında təlim keçirilib.

Tədbirdə çıxış edən YAP Səbail rayon Könüllülər Birliyinin sədri Rəşad İmanov rayon təşkilatında gənclər, tələbələr və könüllülər üçün yaradılan şəraitə görə rayon partiya təşkilatının sədri, Milli Məclisin deputatı professor Şəmsəddin Hacıyevə minnətdarlığını bildirərək, gənclərə fəaliyyətlərində uğurlar arzulayıblar. Sonra təlimçi, PR Akademiyasının məzunu, bir çox layihələrin rəhbəri və meneceri Ümid Orucov "Layihə formatının hazırlanması" və "Layihənin biznes planının hazırlanması və büdcəsinin tərtib olunması" mövzularında auditoriyaya təlim keçib.

YAP Səbil rayon Könüllülər Birliyinin İctimai əlaqələr departamentinin sədri Taleh Mansurov ictimaiyyətlə əlaqələr və ictimai fəaliyyətin təşkili ilə bağlı çıxış edib. Ölkə Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı çərçivəsində ölkədə gənclər siyasəti və gənclərə yaradılan şəraitdən danışan T.Mansurov ictimai fəaliyyətin gənclərin həyatındakı önəmindən bəhs edib.

Tədbirin sonunda YAP Səbail rayon Könüllülər Birliyinin icraçı direktoru Fərid Hüseynquliyev birliyin fəaliyyəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verərək, gəncləri bu işlərdə yaxından iştirak etməyə dəvət edib.

**R.KAMALQIZI**

# Naxçıvan özünü taxılla tam təmin edir



Artıq bir neçə ildir ki, Naxçıvan özünü taxılla tam təmin edir və məhsuldarlıq da yaxşıdır. Kənd təsərrüfatının inkişafı üçün indi pivot suvarma qurğularının alınması məqsədilə vəsait ayrılmışdır. Eyni zamanda, bu ilin investisiya proqramında Süni Mayalanma Mərkəzinin tikintisi nəzərdə tutulur. Bunun ümumi dəyəri təqribən 7 milyon manatdır, onun böyük hissəsi bu il verilməli idi, vəsait verildi. AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edərkən deyib. Dövlətimizin başçısının bu sahədə hansı işlərin görüldüyü ilə bağlı sualı cavablandıran Ali Məclisin Sədri deyib: "Muxtar respublikada bu sahəyə də diqqətiniz sayəsində, cənab Prezident, deyə bilərəm ki, bu illər ərzində 4 min hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələri qurulmuş, 160-dan yuxarı artezian quyusu qazılmışdır və kəhrizlər bərpa olunmuşdur. Bunun hesabına 2003-cü ildə muxtar respublikanın əkinəyararlı torpaqları əgər 39 min hektarı əhatə edirdisə, Heydər Əliyev su anbarını istifadəyə verdiyinizdən, yeraltı suvarma şəbəkələri qurulandan sonra bu gün artıq 62 min hektar əkinəyararlı torpaqlardan istifadə olunur və muxtar respublika özünü ərzaqla tam təmin edə bilir. Deyə bilərik ki, Sizin rəhbərliyinizlə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi məsələləri tam təmin olunubdur".

# Cəlil Məmmədquluzadə nəslinin davamçıları Bakıda



Görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə nəslinin davamçıları - ədibin nəticəsi Martin Cavanşiri və Pşemslav Cavanşiri Bakıya gəliblər. Onları Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Azərbaycana dəvət edib.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, akademik İsa Həbibbəyli ilə görüşdə qonaqlara Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı, böyük demokrat yazıçıya Azərbaycanda dövlət səviyyəsində göstərilən yüksək ehtiram haqqında məlumat verilib. Qonaqlar, həmçinin Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə həsr edilmiş tədbirlər barədə geniş məlumat alıblar.

Görüş zamanı, eyni zamanda, 1942-ci ildə Azərbaycandan getmiş Mirzə Cəlilin oğlu Ənvər Məmmədquluzadənin mühacirət həyatından və onun dünyanın müxtəlif ölkələrində yaşayan övladlarının və nəvə-nəticələrinin taleyindən geniş söz açılıb. Akademik İsa Həbibbəyli qonaqlara Cəlil Məmmədquluzadəyə həsr edilmiş kitablar və böyük yazıçının metal üzərində əllə döymə üsulu ilə işlənmiş portreti hədiyyə edib.

Polşadan gəlmiş qonaqlar Şəhidlər xiyabanını ziyarət edib, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində və İçərişəhərdə olublar. Onların Cəlil Məmmədquluzadənin ev-muzeyinin yenidən qurulmasından sonra açılışı mərasimində iştirakı nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görkəmli yazıçı və ictimai xadim "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" 2019-cu il 17 yanvar tarixli Sərəncamı üzrə Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının tədbirlər planına uyğun olaraq Milli Kitabxanada Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə keçirəcəyi beynəlxalq elmi konfransda Martin Cavanşirin çıxışı nəzərdə tutulur. Cəlil Məmmədquluzadə nəslinin davamçıları ilə AMEA-da və Yazıçılar Birliyində də görüşlər keçiriləcək. Qonaqlar Azərbaycanın bir qrup ziyalısı ilə birlikdə bu gün böyük demokrat yazıçının Fəxri xiyabandakı məzarını ziyarət ediblər.

# Miqrant dəllalları

*Müsavatın mühacirət biznesinin ifşası*
*Arif Hacılının istefası ilə nəticələnə bilər*

***Şəxsi ambisiyaları naminə bütün ali dəyərləri ayaqlar altına atan bu üzdəniraq satılmış müxaliflər öz xislətlərinə sadiq qalaraq, dağıdıcı və qeyri-konstruktiv əməllərini şər-böhtanın, "qara piar"ın, ən başlıcası isə, öz antimilli fəaliyyətlərinin miqyasını daha da genişləndirsələr də, sonda bu satqınlığın cəzasını almalı idilər. Bu günlərdə Almaniyanın hüquq-mühafizə orqanları tərəfindən Müsavat partiyasının keçmiş üzvlərinin - cinayətkar şəbəkəyə daxil olan 7 nəfərin həbs edilidəsi və saxlanılan üzvlərin barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilməsi gectez olmalı idi.***

## Xədicə İsmayıl "Müsavat" rəhbərliyini istefa verməyə çağırıb

Baş verən olaylar, hətta satqınçılıqda digərlərindən geri qalmayan "tədqiqatçı-jurnalist" X.İsmayıl bütün bu baş verənlərin əsas səbəbkarının Müsavat başqanı Arif Hacılı olduğunu sosial şəbəkələrdə başqanın istefa verməyə məhkum olduğu haqda müraciət ünvanlayıb. O, sosial şəbəkədə paylaşım edərək, qeyd edib: "Müsavat rəhbərliyində istefa mədəniyyəti də yoxdur, üstəlik".

Bu paylaşımdan sonra Müsavat tərəfdarları X.İsmayılı tənqid ediblər.

Müsavat rəhbəri Arif Hacılı isə, öz növbəsində, "böhtan və şantaj" hədələri ilə istefaya getməyəcəyini deyib.

Bax budur, satqınçılıq. Mayası xəyanətlə, satqınlıqla və pozuculuqla yoğrulmuş bu siyasətbazlar, onların beş-üç nəfər əlaltıları, trolları sosial şəbəkələrdə saxta profillərlə dövlətimizə, dövlətçiliyimizə, ayrı-ayrı şəxslərə şər-böhtan, təhqir yağdırmaqla özlərini ifşa etməklə yanaşı, erməni dəyirmanına su tökdüklərini və anti-Azərbaycan dairələrin bir nömrəli qulluqçuları olduqlarını açıq-aşkar ortaya qoyurlar. Öz şəxsi ambisiyalarını milli maraqlardan üstün tutan siyasət dəllalları bütün mənəvi və əxlaqi dəyərləri tapdalayaraq, Avropanın müxtəlif ölkələrində məskunlaşmış, məhdud siyasi təfəkkürlü, dar dünyagörüşlü, ölkəmizdə və dünyada baş verən ictimai-siyasi prosesləri düzgün təhlil edə bilməyən bəzi kəmsavad gəncləri tora salaraq, öz məkrli məqsədlərinə alət etməkdən belə çəkinmirlər.

Mənəvi-psixoloji burulğanlar girdabında çırpınan bu üzdəniraqların ölkəmizin əleyhinə apardıqları çirkin təbliğat xalq-iqtidar birliyinin sarsılmaz qayasına çırpılaraq, darmadağın olur. Cəmiyyətimiz belə düşmən qüvvələrin, antimilli ünsürlərin, Vətən əxlaqını itirənlərin məkrli niyyətlərinə, oynadıqları oyunun hər detalına, mexanikasına yaxşı bələd olduğundan, onların bütün məkrli planlarının pozulmasına böyük dəstək verib.

"Xalqı mübarizəyə səsləmək və demokratiya uğrunda mübarizə aparmaq adı ilə on minlərlə avro qrant aldı, mənə qəpik-quruş verdi", "Yüz minlərlə avronu mənimsədilər, ortada biz qaldıq", "Bizi aldatdılar, pul verəcəklərini dedilər, vermədilər".

Aldığımız məlumatlara və informasiyalara görə, hazırda Almaniya, Fransa, Britaniya, Çexiya və Belçikada sığınmış durumda olan "müstəqil jurnalist", "siyasətçi" və "bloqer"lər arasındakı parçalanma, düşərgələnmə və qarşıdurma pik həddinə çatıb.

## Osmanqızı-Kərimli dueti sifariş yerinə yetirən əxlaqsızlardır

Bu bir real faktordur ki, bütün baş verənlərin ssenari müəllifi AXCP sədri yox, C.Sorosun "Açıq Cəmiyyət" fondu, F.Ebert və F.Nauman fondları, "Sərhədsiz Reportyorlar", "Freedom House" və "Amnesty International" təşkilatlarından ibarət konqlomeratdır. Çünki satqın və əxlaqsız Sevinc Osmanqızının AXCP sədrinə bir siyasətçi və ya ictimai xadim qismində rəğbəti, yaxud da, tam tərsinə, antipatiyası müzakirə mövzusu deyil. Məsələ Osmanqızı-Kərimli duetinin sifariş yerinə yetirməsi və bunun müqabilində konkret dividendlər əldə etməyə çalışmasıdır.

Almaniyada qanunsuz miqrasiya və insan alveri ilə bağlı aparılmış genişmiqyaslı polis reydləri, bu zaman 7 azərbaycanlının tutulması və onların da əksəriyyətinin "Müsavat" partiyasının üzvü olması, xüsusilə də, bu partiyanın üzvlük sənədləri və arayışlarıyla intensiv alver olunması faktlarının aşkarlanmasından sonra yaranmış situasiyanı Ə.Kərimli maksimum dərəcədə dəyərləndirməyə çalışır.

Ölkədəki radikal, aqressiv müxalifətin və qaragüruhun, mənfi mənada, "simvol"una çevrilmiş Ə.Kərimlini önə çəkməyə çalışan bir sıra beynəlxalq təşkilatların Azərbaycandakı daxili siyasi vəziyyəti gərginləşdirmək cəhdlərinin təzahürləri də AXCP sədrinin qeflətən YouTube kanallarındakı və sosial şəbəkələrdəki iaşə müxalifətinin lideri bəyan etdikləri şəxsə çevirmələridir. Vəziyyət o yerə çatıb ki, S.Osmanqızısayaq mimikriya ustasından tutmuş, V.İsgəndərli kimi marginaladək, bir sıra "bloqer"lər aşkar şəkildə Ə.Kərimlinin təbliğatı və təşviqatı, daha doğrusu, primitiv vəsfi ilə məşğuldurlar. Onlar, eyni zamanda, "Müsavat"ı zəif, heç bir potensialı və perspektivi olmayan, idarəetmə sistemi iflic bir struktur kimi təqdim edirlər. Çünki "Müsavat"la bağlı deyilənlər gerçək deyil, gerçəyin, sadəcə, bir hissəsidir. Həqiqət isə budur ki, Arif Hacılının rəhbərlik etdiyi, yəni özünü "başqanı" adlandırdığı partiya kliniki koma vəziyyətinə düşərək, siyasi dərnəyə çevrilib. Daha doğrusu, Arif Hacılı rəhbərlik etdiyi partiyanı şəxsi maraqlarının təminat vasitəsi sayır. O, Almaniyadakı qalmaqaldan sonra istefa verməli olsa da, bu fikirdə deyil. Tam əksinə, Almaniya polisinin və məhkəmələrinin qərarlarını az qala "Azərbaycan hakimiyyətinin basqısı, təzyiqi" kimi qələmə verərək, siyasi təlxəklik etməklə məşğuldur. Xarici ölkələrdəki bloqerlər isə daha çox pul, daha böyük məbləğlər əldə etmək üçün çalışırlar. Daha doğrusu, dava pul davasıdır.

## Alya Yaqublu: "Arif Hacılı saxta arayışlar üçün haqq alıb"

Müsavat partiyasının sabiq divan üzvü Alya Yaqublu partiyanın adının mühacir qalmaqalında hallanması ilə bağlı danışaraq, bildirib ki, A.Hacılı yüzlərlə-minlərlə insana arayış verib göndərmək, ümid vermək, onları daha da həvəsləndirmək çox yanlış addımdır: "O arayışlar möhürə, imzaya görə deyil, içində yazılanların həqiqəti əks etdirməməsinə görə saxtadır. O arayışların içinə "mübarizə aparıb" və "bu adama polis təzyiqi olub" kimi sözlər yazılanda, o arayış artıq həqiqəti əks etdirməyən bir sənəd olur. Bütün bunlara Müsavat partiyası rəhbərliyi cavab verməlidir. Arif Hacılının istefasına da cəhd edəcəyik. Çünki məsuliyyəti o daşıyır. Bu gün Müsavatı xilas etməyin yeganə yolu A.Hacılının istefasıdır. O istefa verərsə, bu, artıq cəmiyyət üçün bir mesaj olar ki, biz artıq yenilənirik, ölkədən getmək istəyənlərə arayış vermək, onları mühacirətə göndərmək işindən kənarlaşırıq, bu işi görən adam da, artıq partiyanın rəhbəri deyil. Bu, cəmiyyətə çox ciddi bir mesaj olar. Bu, Müsavatda vəziyyəti dəyişməyə kömək edəcək və partiyaya əvvəlki imicini qazandıracaq".

Göründüyü kimi, bütün bu faktlar bir daha "mühacirlər"in həm səviyyələrini, həm də əsl niyyətlərini aydın göstərir. Misal məqamında gəldiyi üçün deyirəm: "eşşək palçığa bir dəfə batanda, yolunu dəyişir". Ancaq bu "siyasi mühacirlərin" gönü qalındır. Bir də bu zəhərli parazitlərdən hansı əxlaq gözləmək olar? Bu, o əxlaqsız "siyasi mühacirlər"dir ki, aldıqları qrantlara görə, bütün mənəviyyatlarını sataraq, antiAzərbaycan kampaniyalar təşkil edirlər. Ancaq 5-10 avro müqabilində beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışsalar da, hələ bu günə kimi heç nəyə nail ola bilməyiblər və bundan sonra da bu "iddiaları" ürəklərində qalacaq. Necə ki, qalmaqdadır. Daha doğrusu, özləri özlərinə quyu qazırlar. Sonda bu zəhərli ilanlar bilməlidirlər ki, törətdikləri əməllərinə görə xalqın qarşısında da ən ağır cəzələrini alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

**RƏFİQƏ HÜSEYNOVA**

# Ölkədə saxta şpris həyəcanı, bəs problemin qarşısı niyə alınmır?

***Son zamanlar mediada ölkəmizin əczaxanalarında standartlara cavab verməyən şprislərin satılması ilə bağlı bir çox xəbərlər yayılıb. SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynova bildirib ki, bu barədə ardıcıl olaraq vətəndaşlardan şikayətlər daxil olmaqdadır.***



"Şikayətin məğzi əmtəə bazarında olan şprislərlə bağlıdır. Belə ki, sentyabr ayında Standartlaşdırma İnstitutu Azərbaycanın əmtəə bazarında satılan şprislərin böyük bir hissəsini xaricdə 14 parametrlər ürzə ekspertizadan keçirib və məlum olub ki, saxta mallar bazarın təxminən 80 faizini zəbt edib. Eləcə də dövlət və özəl klinikalarda geniş istifadə olunan şprislər və onlara taxılan iynələr heç də standartlara cavab vermir. Ekspertiza nəticələrində məlum olub ki, şprislərin üzərində bölgülər doğru deyil. Standartlara görə şprislər 2 hissədən ibarət olmalıdır. Halbuki, əmtəə bazarında satılan və bazarı zəbt etmiş bu təhlükəli şprislər 3 hissədən ibarətdir və porşenin sonluğunda olan rezin ayrıla bilir. Ekspertizanın nəticələri göstərir ki, bəzən istifadə olunmuş slindirlərin yenidən istifadə edilir", deyə ekspert qeyd edib.

E.Hüseynov bildirib ki, iynələrin ekspertizası zamanı məlum olub ki, bu iynələr insan damarlarında ciddi fəsadlar törədə, bəzən isə infeksiya daşıyıcıları ola bilərlər: "Çox təəssüflər olsun ki, bazarda bu cür vəziyyət heç yerli şpris istehsalçılarını da narahat etmir. Mən birmənalı şəkildə qeyd edirəm ki, dövlət tərəfindən biznes qurumlara yaradılmış şəraitdən hansı ki, bu cür şərait hər ölkədə yaradılmır, sui-istifadə edirlər. Təhlükəli və standartlara cavab verməyən şprisləri Çindən və Türkiyədən idxal edib Azərbaycanın əmtəə bazarında satmaqla istehlakçı hüquqlarını, dövlətimizin qanunlarını pozurlar və vətəndaşların sağlamlığını təhlükə altında qoyurlar".

Onun sözlərinə görə, təsadüfi deyil ki, bu ekspertizadan sonra sentyabr ayında keçmiş iqtisadiyyat naziri Şahin Mustafayev Səhiyyə Nazirliyini, Gömrük orqanlarını, digər idxalçı şirkətləri, o cümlədən Standartlaşdırma Agentliyini toplayıb müşavirə keçirib və bu müşavirədə tapşırıq verib ki, bu şprislər Azərbaycanın əmtəə bazarından çıxarılsın. "Lakin hazırda noyabr ayı olmasına baxmayaraq 3 aptekə ardıcıl daxil oldum və hər 3 aptekdə bu şprislərin satıldığını gördüm. Düşünürəm ki, buna son qoyulmalıdır. Mən Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən aldığım cavabla bağlı çox təəssüf edirəm. Hörmətli Murad Süleymanovun imzasıyla Səhiyyə Nazirliyinə göndərdiyim məktuba amorf, heç bir məna kəsb etməyən cavab verilib. Cavablarında isə: "İctimai təşkilatdan xahiş olunur ki, sizdə olan şprisləri bizə təqdim edin və biz onları ekpertiza edək" deyə cavab veriblər. Nə üçün dövlət orqanı, digər dövlət orqanının keçirdiyi ekspertizanın nəticələrini götürüb təhlil aparmır? Mənim təsadüfi apteklərdən aldığım şprislər ekspertiza üçün hansı yöndə əsas verə bilər? Məni belə hallar təəccübləndirir. Digər dərman vasitələri kimi o cümlədən şprislər də Səhiyyə Nazirliyinin icazəsi ilə bazara idxal olunur. Düşünürəm ki, Analitik Ekspertiza Mərkəzi və digər dövlət orqanları bu işə ciddi yanaşmalıdır".

QHT sədri bildirib ki, əsas məsələlərdən biri də budur ki, dövlət vəsaiti və böyük investisiya hesabına yaradılmış yerli şirkət, standartlara uyğun şpris istehsal etdiyi halda, bazar 80 faiz standartlara cavab verməyən şprislərlə doludur: "Yerli istehsalçının da bu məsələyə biganə qalması məni təəccübləndirir. Qeyd etdiyim kimi standartlara cavab verən şprislər 2 hissədən ibarət olmalı və şpris əyən kimi qırılmalıdır ki, sıradan çıxsın. Lakin adını çəkdiyim Türkiyə və Çin istehsalı şprislər 3 hissəlidir və sındıraraq sıradan çıxarılması mümkün deyil. Ona görə onlar başqa ölkələrdə yenidən hazırlanıb bizə, yəni Azərbaycana göndərilmə ehtimalı vardır və ekspertiza nəticələri də bunu sübut edir. Düşünürəm ki, tezliklə bu şprislər bazardan yığışdırılmalıdır. Əhali birmənalı çəkildə bu cür şprisləri istifadə etməməlidir. Azad İstehlakçılar Birliyi bununla bağlı gömrük orqanlarına, İqtisadiyyat və Səhiyyə nazirliklərinə, eləcə də Nazirlər Kabinetinə rəsmi məktublar və ekspertiza nəticələrini göndərib. Düşünürəm ki, əhali də, biznes qurumlar da, bütün cəmiyyət elə bir iş aparmalıdır ki, insanların sağlamlığı bu şprislər vasitəsilə təhlükədə qalmasın.

Daha sonra bu məsələ ilə əlaqədar Analitik Ekpertiza Mərkəzindən verilən açıqlamada, "Şprislərlə bağlı bizə heç bir vətəndaşdan şikayət daxil olmayıb. Əgər bunla bağlı kiminsə şikayəti varsa, həm Analitik Ekspertiza Mərkəzinin qaynar xəttlərinə, həm də bizim pəncərə xidmətimizə müraciət edə bilərlər. Apteklərə nəzarət isə şikayət əsasında aparılır. Ölkəyə idxal edilən bütün şprislər Analitik Ekpertiza Mərkəzinin idxal şöbəsində yoxlanılır və idxal edilir".

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun iddiasına görə Səhiyyə Nazirliyinin bu məsələ ilə əlaqədar heç bir rəy verməməsi ağıllarda şübhəli məqamlara yol açır.

***Aysel Məmmədova***

# Gülağa Aslanlı hansı "faktı" axtarır

*Və ya özünü sərsəm yerinə qoymaqla, xalqı aldatmaq olmaz!*

***Bu günlərdə Müsavat partiyasının daha bir siyasi mühacirə saxta arayış verməsi ilə bağlı iddia ortaya çıxıb. Bu barədə Avropada mühacirətdə olan jurnalist, keçmiş müsavatçı Yafəz Əkrəmoğlu sosial şəbəkələrdə məlumat yayıb. Belə ki, Arif Hacılının imzası, Müsavat partiyasının möhürü ilə verilən arayış fotosunu paylaşan Y.Əkrəmoğlu yazıb ki, ortada bütün faktlar olduğu halda, Müsavat başqanının və funksionerlərinin "fakt" tələb etmələri heç bir çərçivəyə sığmır.***


İnsanlara hürriyyət, Millətlərə istiqlal
MÜSAVAT PARTİYASI
MUSAVAT PARTY
№ 51
Arif Hacılı
Müsavat Partiyası
Mərkəzi İcra Aparatının rəhbəri

## Yafəz Əkrəmoğlu: "Arayışın içərisindəki "təzyiqə məruz qalıb", "polis təqibi", "mühacirətə getməyə məcbur oldu" kimi digər məlumatlar da tam yalandı"

"Bu qədər həngamədən sonra Gülağa Aslanlı yenə deyir ki, fakt qoyun. Bu qədər fakt yetərli deyilmi? Deyilsə, A.Hacılının orijinal imzası, Müsavatın halalca möhürü ilə "geydirmə siyasi mühacir"ə verilən bir arayışı da paylaşıram" deyə qeyd edən Y.Əkrəmoğlu əlavə edib ki, qarşı tərəf real həqiqətlər olsa belə, həmin həqiqətləri qəbul etmək cürətinə malik deyil: "Bilirəm ki, bir yol tapıb, boyunlarından atmağa çalışacaqlar. Önəmli deyil, sadəcə, məlumatlanın. İçi saxta və yalan məlumatlarla dolu bir arayışdan gedir söhbət. Bu arayışı A.Hacılı 2014-cü ildə Avropaya mühacirətə getmək istəyən bir naxçıvanlıya verib. Hələlik, adının üstündən xətt çəkib paylaşıram. Arayışda yazılıb ki, arayış verilən "qəhrəman" Müsavat partiyasının Babək rayon təşkilatı gənclər özəyinin fəal üzvüdür. Birinci yalan Müsavat partiyası Naxçıvan MR ərazisindəki təşkilatların heç birində gənclər özəyi olmayıb. Sadəcə, arayış belə yazılıb ki, daha təsirli görünsün. Arayışın içərisindəki "təzyiqə məruz qalıb", "polis təqibi" və "mühacirətə getməyə məcbur oldu" kimi digər məlumatlar da tam yalandı və şəxsin rahat siyasi mühacir statusu almasına hesablanıb".

Müsavatçıları ifşa edən sabiq müsavatçı həmin faktları nəyə görə əminliklə yazdığına da aydınlıq gətirib: "Bunları nəyə görə əminliklə yazıramə Çünki mən uzun müddət Müsavatın Naxçıvan MR təşkilatında rəhbər postlarda olmuşam. Naxçıvanda elə bir müsavatçı fəal (yaxud azacıq fəal) yoxdur ki, indi də tanımayım".

## "Arif Hacılının arayış verdiyi bu şəxsi isə mən qətiyyən tanımıram"

Keçmiş müsavatçının digər faktı isə budur ki, saxta arayışda adı hallanan şəxs heç vaxt partiyaya üzv olmayıb: "Arayışda yazılana inansaq, bu şəxs 2008-ci ildən partiya üzvüdür. Həqiqətən, təzyiqlə üzləşən belə bir fəalı mənim tanımamam mümkünsüzdü. Qəti əminliklə deyirəm ki, hansısa siyasi fəal olan naxçıvanlı müsavatçı indiyə kimi mühacirətə gəlməyib. Kimliyindən asılı olmayaraq. əgər belə bir şəxs olsa, mütləq mən tanıyardım. A.Hacılının arayış verdiyi bu şəxsi isə mən qətiyyən tanımıram. Harada, necə və hansı məqsədlə müsavatçı edilib, bu arayış yazılıb, özləri cavab versin".

Beləliklə, arayışda adı çəkilən şəxs heç vaxt Naxçıvanda müsavatçı olmadığını deyib: "Olsa da belə, Bakıdakı qərargahdakı arxivə saxta yolla, köhnə tarixə "oformit" edilib. Yaxud da, heç onu da etməyiblər. Bu yaxınlarda A.Hacılıgil guya şəffaflıq məqsədiylə məlumat yaydılar ki, son 5 ildə 197 ədəd arayış veriblər. Ancaq arayış alanların kimlikləri haqda məlumatı ciddi-cəhdlə gizlədirlər. Araşdırmalarımıza görə bu rəqəm, əslində, dəfələrlə artıqdır. Bundan əlavə, böyük əksəriyyət arayışların içərisindəki məlumatlar, bax, paylaşdığım arayışdakı məlumatlar kimi saxtadır. Elə buna görə arayış sahiblərinin kimliklərini paylaşmırlar. Sonra deyirlər ki, bizə niyə saxtakar və alverçi deyirlər. Bax, buna görə. Etməyin, deməsinlər".

## "Arayışdakı yalan məlumatlar belə ona kömək etməyib"

Y.Əkrəmoğlu qeyd edib ki, arayışda adıkeçən şəxs 2014-cü ildə Avropa ölkələrinin birinə mühacirətə gedib: "Haqqında mənfi qərar çıxarılıb, siyasi status ala bilməyib. Yəni arayışdakı yalan məlumatlar belə, ona kömək etməyib. Onun sonrakı taleyini və adını göstərməməkdə məqsəd qarşılaşa biləcəyi təhlükəni önləməkdi. Yəni bizim əlimizlə olmasın".

Bu arada, jurnalistlərin məsələ ilə bağlı suallarını cavablandırmaqdan qaçan daha bir müsavatçı funksioner Gülağa Aslanlı yaxasını kənara çəkərək, "fakt" tələb edir. Bütün çılpaqlığı ilə ortaya çıxan faktları, nədənsə, görmür. Ya o özünü sərsəmliyə vurur, ya da xalqı aldatmağa çalışır. Amma haraya fırlatmağa cəhdlər göstərsə belə, bir vaxtlar onlara inanan elektoratları istefa tələblərindən əl çəkməyəcəklər. Daha dəqiq desək, A.Hacılı başda olmaqla, bütün idarə heyəti istefaya gedərək, rüsvayçılıqlarını da etiraf etməyə məhkumdurlar!

**Rövşən RƏSULOV**



## Ermənistan hökumətinin sosial proqramları yarımçıq qalıb

2019-cu ilin 9 ayı ərzində Ermənistanda sosial proqramların cəmi 50 faizi həyata keçirilib. Ekspertlər bildiriblər ki, işsizliyin səviyyəsinin azaldılması ilə bağlı Paşinyan hökumətinin vədi yerinə yetirilməyib. Ölkədə əlillərin məşğulluğu isə dörd dəfə azalıb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, geriləmənin əsas səbəbi korrupsiya və "kölgə iqtisadiyyatı" ilə mübarizə pərdəsi altında idarəçiliyin yarıtmaz olmasıdır. İqtisadçı Tadevos Avetisyan bildirib ki, 2018-ci ildə sosial proqramların həyata keçirilməsi bu ilin doqquz ayında olduğundan 25 faiz çox olub. Belə ki, dövlət büdcəsindən 250 min işsiz vətəndaş üçün ayrılan vəsaitin cəmi 25 faizi onların məşğulluğunun təmin edilməsinə xərclənib. Ekspert minlərlə insanın sosial müdafiədən məhrum olduğunu qeyd edərək xatırladıb ki, ölkənin Əmək və Sosial Məsələlər Nazirliyi konstitusiyanın müvafiq maddələrini kobud şəkildə pozur.

Hökumət isə işsizlərin özlərini günahlandırıb. Qeyd edib ki, az maaşa qane olmayan erməni fəhlələri hindistanlılar əvəz edirlər. Ermənistan hökuməti gələn ildən məşğulluq məsələləri ilə bağlı proqrama müsbət dəyişikliklər edəcəyini vəd edir, lakin ekspertlər onun bu vədinə skeptik yanaşırlar.

## TANAP-ın ikinci fazası noyabrın 30-da istifadəyə veriləcək



TANAP boru kəmərinin ikinci fazası noyabrın 30-da istifadəyə veriləcək. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Fatih Dönməz deyib. O bildirib ki, Türkiyənin iştirakı ilə reallaşdırılan layihələr Avropanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayır. TANAP da bu layihələrdən biridir. Noyabrın 30-da boru kəmərinin ikinci fazasının açılışı planlaşdırılır.



## "Ən böyük şər oğurluq, hətta qətl də deyil, satqınlıqdır"

**RƏFİQƏ**

***Bəli, dərk edə-edə, anlaya-anlaya ölkəmizin düşmənləri ilə bir dam altında oturub, dövlətçilik maraqlarımızı satmaq. Ömər Xəyyama görə, "İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar". Səbəb aydındır. Satqın zehniyyəti nədən qaynaqlanır? Əlbəttə, maliyyə-pul arqumentindən satqın yalnız mənfiqləmi düşünür? suallarına mütləq olmasa da, elmi cavablar var. Alınan nəticələr göstərir ki, sən demə, işin kökü yalnız acgözlük və pul deyil. Kimsə, doğrudan da, varlanmaq üçün, xəyanətinə əvəz olaraq pula satılır.***

Sirr deyil ki, bu gün ölkəmizin günü-gündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan sapı özümüzdən olan satılıb-satılan baltalar "siyasi mühacir" adı altında çörəyini yeyib, suyunu içdikləri Azərbaycana qarşı antitəbliğat kampaniyası aparmaqla, erməni lobbisi tərəfindən lazımi maliyyələrə satın alınırlar. Bu, heç də təəccüb doğurmur. Çünki satıb-satılan əxlaqsızların mənəviyyatı olmaz. Erməni lobbisinin maliyyələşdirdiyi bu əxlaqsız və satqınlar - Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir və digər bu kimi parazitlərin çirkin əməlləri, gec-tez, üzə çıxmalı idi.

Xəyanətkarın ağı-qarası olmur. Həm də, o da deyilir ki, haqq nazilər, amma üzülməz. Gec-tez, Avropada "siyasi mühacir" adı altında dövlətçilik və milli maraqlarımıza qarşı fəaliyyət göstərən haqqı tapdalayanlar və ermənilərə qahmar çıxanlar törətdikləri cinayət əməllərinə görə cəzalarını çəkməlidirlər. Bu parazitlər anlamırlar ki, "sirkə nə qədər tünd olsa, öz qabını çatladacaq".

Almaniyada Müsavat partiyasının üzvlərindən ibarət "mühacir alveri" bandasının üzə çıxması deyilənlərin real nəticəsidir. Bu haqda Koblenç məhkəməsi həbs və axtarışlarla bağlı sanksiya qərarında göstərir. Bunu Avropada yaşayan müsavatçı jurnalist Yafəz Əkrəmoğlu sosial şəbəkədə yazaraq bildirib: "Özünün də ziyan görəcəyini nəzərə alaraq, qardaşı Arif Hacılı (Müsavat partiyasının başqanı - red) ilə birlikdə boğaza qədər "mühacir alveri"nə bulaşan, bu çirkin işlə qidalanan Mustafa Hacıbəyli və ətrafının indi Rəşad Məmmədovun üzərinə getməsi normaldı. Axı, bunların çirkin işlərinin üstünün açılmasında böyük rol oynayıb Rəşad".

Görün qrant bu satqın və əxlaqsızları necə üz-üzə qoyub. Artıq heç kimə sirr deyil ki, "siyasi mühacir" adı altında olan ünsürlər ermənilərlə əməkdaşlıq etməklə, erməni lobbisinin göstərişlərinə uyğun idarə olunurlar və sözsüz ki, Vətən, millət, dövlət və xalq anlayışı belə şəxslərə yaddır. Bir də bu, təəccüblü deyil. Çünki xəyanətkarın ağı-qarası olmur.

Bəli, bu, real faktordur. Çünki xaricdən maliyyələşərək Azərbaycanı gözdən salmağa çalışan şər maşınının əsas aqibəti belə olmalı idi. Prezidentin köməkçisi Əli Həsənovun təbirincə desək, xaricdən maliyyələşən və idarə olunan "iaşə müxalifəti" nə qədər cəhd etsə də, ölkəmizin suverenliyinə xələl gətirə bilməz. Eyni zamanda, Azərbaycan xalqının, ölkənin gələcəyini düşünən qurumların belə adekvat münasibəti isə, bir daha göstərir ki, xaricdən maliyyələşən qüvvələr öz antimilli niyyətlərini gerçəkləşdirə bilməyəcəklər, çünki bu ölkənin oturuşmuş bir siyasi qüvvə və iradə idarə edir.

Ölkə Prezidenti İlham Əliyevin siyasi iradəsi qarşısında isə, bütün antimilli qüvvələr məğlubiyyətə məhkumdurlar.

Bax, budur, sizin kimi üfunət iyi verənlərin yeri- zibilliklər. Çünki Azərbaycan ictimaiyyəti yaxşı anlayır ki, beləsləri ancaq onun-bunun beş-üç qəpiyi ilə səs-səsə verərək, zingildəşirlər. Sözsüz ki, bu cür müxalifətçiliyin sonu elə belə də olmalıdır. Bir də satqınlıq, tarixən əxlaqın və mənəvi prinsiplərin aşınmasının göstəricisi kimi dəyərləndirilib. Naturasında xəyanət olan kəslər üçün isə satqınlıq etmək adi bir şey olub. Məhz bunun nəticəsidir ki, ağlı başında, əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər. Artıq əlavə şərhə ehtiyac yoxdur. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlər, hər şey elin gözü qabağındadır. Ən böyük tərəzi də, məhz odur.

# "Sergey Lavrovun mənşəyi bəllidir"

## *"Lavrov hər zaman erməniपərəst mövqedən çıxış edib"*

***Ermənistanda səfərdə olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik prinsiplərinə zidd olan, status-kvonun saxlanılmasına hesablanan bəyanatlar və açıqlamalarla çıxış edib. Bununla da bir daha Rusiya rəsmisi Ermənistana Dağlıq Qarabağ münaqişəsinin həllində öz dəstəyini nümayiş etdirib. Söhbət etdiyimiz müsahiblərimiz Lavrovun Dağlıq Qarabağla bağlı mövqeyinin beynəlxalq hüquq normalarına zidd olduğunu bildirdilər.***

### Millət vəkili Tahir Rzayev: "Rusiya Ermənistanı silahlandırır"



- Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ermənistanda səsləndirdiyi fikirlər həmsədr ölkənin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində üzərlərinə götürdüyü vasitəçilik prinsiplərinə və beynəlxalq hüquq normalarına ziddir. Demək olar ki, Sergey Lavrov əvvəllər də münaqişənin həlli məsələsində erməniपərəst mövqedən çıxış edib. Yəni Sergey Lavrovun Ermənistana səfəri zamanı rəsmi danışıqlarda erməniपərəst mövqeyi hiss olunurdu. Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərindən biridir və Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın çox böyük rolu var. Ümumiyyətlə, problemin nizamlanmasında birinci dərəcəli rolu Rusiya daşıyır. Çünki Rusiya Ermənistanı silahlandırır, Ermənistanda öz hərbi bazasını yerləşdirir və daimi olaraq Ermənistana dəstək verir. Düzdü, son zamanlar ölkə rəhbəri Valdimir Putinin çıxışlarında Azərbaycana münasibətdə yaxınlaşma hiss olunur. Ancaq çox təəssüflər olsun ki, erməniपərəst qüvvələr, eləcə də, Sergey Lavrov hər zaman münaqişənin həlli məsələsində ermənilərin tərəfindən çıxış edirlər.

### Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: "Sergey Lavrovun erməni təəssübkeşliyindən kifayət qədər xəbərdarlıq"

- Ermənistan Rusiyanın forpostudur və bütün dünya artıq bunu bu şəkildə qəbul edib. Yəni Ermənistan Rusiyanın əlavəsidir, indiyə qədər də Ermənistan müstəqil siyasətdə yetirməyib və yeridə də bilməz. Bir sözlə, bu gün fakt odur ki, işğalçı ölkə olan Ermənistan Rusiyanın forpostudur. Ermənistanda səfərdə olan Sergey Lavrov vasitəçilik prinsiplərinə zidd olan,



status-kvonun saxlanılmasına hesablanan bir bəyanatlar və açıqlamalar ilə çıxış etməsi beynəlxalq hüquq normalarına ziddir. Demək olar ki, Sergey Lavrovun da mənşəyi bəllidir, ki, insan kimdir və onun bu mesajları da, bəyanatları da hardan qaynaqlanır? Yəni biz Sergey Lavrovun erməni təəssübkeşliyindən də, kifayət qədər xəbərdarıq. Bu baxımdan, Sergey Lavrovun bu cür bəyanatlarını və açıqlamalarını təsadüfi hesab etmirəm. Bütün bunların hamısı böyük bir siyasətin tərkib hissəsidir. Biz bu cür məsələlərə bir az daha təmkinli yanaşmalıyıq. Bu cür bəyanatın verilməsi onların növbəti gedişatı və addımıdır. Bildiyiniz kimi, işğalçı Ermənistan faşist idealogiyasını təbliğ edən bir ölkədir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən birinin üzvi olaraq, bu cür açıqlamalarla çıxış etməməlidir. Yəni Qaregin Njdenin heykəlini ucaltmış işğalçı ölkə olan Ermənistan öz layiq olduğu cəzasını alacaqdır. Çünki bu cür davam edə bilməz.

**GÜLYANƏ**

## Qadınların çantasından pul və sənədlər oğurlayan şəxs yaxalanıb



Suraxanı Rayon Polis İdarəsinin 31-ci polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxt sakini olan üç qadına məxsus çantalardan pul və sənədlər oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini B.Bünyadov yaxalanıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oğurluq etdiyinə görə saxlanılmış S.Pənahovun ətrafında Binəqədi Rayon Polis İdarəsinin - 43-cü polis bölməsinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun oktyabrın 21-dən 28-dək olan müddətdə rayondakı həyətyanı sahələrin birindən su sayğacı və "VAZ-2104" markalı avtomobildən akkumulyator oğurlaması da müəyyənləşdirilib. İmişli Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində noyabrın 16-da rayon sakini Q.Bağırovanın evinə girərək quldurluq yolu ilə qızıl sırğasını, qızıl üzüyünü və iki ədəd mobil telefonunu almaqda şübhəli bilinən şəhər sakini E.Xubiyarov tutulub. Faktlarla bağlı araşdırmalar davam etdirilir.



## DİN Xəzər rayonunda baş verən ağır yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yayıb

Daxili İşlər Nazirliyi (DİN) Xəzər rayonunun Qala qəsəbəsində baş verən ağır yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yayıb.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xəzər rayonunun Qala qəsəbəsi ərazisində Bakı şəhər sakinləri H.Hümbətovun və V.Dadaşovun idarə etdikləri müvafiq olaraq, "VAZ-2105" və "BMW" markalı avtomobillər toqquşub. Nəticədə H.Hümbətov və sərnişinlərindən qızı Rəvanə, nəvəsi Rəvan, qardaşı Ağasəf hadisə yerində ölüb, digər iki sərnişini xəstəxanaya yerləşdiriliblər. Hadisə ilə bağlı Xəzər Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Üzərində narkotik vasitə olan sürücü hadisə yerindən qaçıb



Yeni Ələt-Astara yolunun 47-ci kilometrliyində Kürdəmir rayon sakini M.İbrahimovun idarə etdiyi "VAZ-2107" markalı avtomobil konstruksiyaları dəyişdiyinə görə Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, akt tərtib olunarkən sərnişin Y.Fətəliyev əlindəki balaca bükümü yerə ataraq sürücü ilə birlikdə hadisə yerini tərk edib.

Polis əməkdaşları tərəfindən görülmüş tədbirlərlə Y.Fətəliyev saxlanılaraq Salyan Rayon Polis Şöbəsinə təhvil verilib. Araşdırmalarla həmin bükülüdə 20 qramdan artıq heroin və 0,170 qram metamfetaminin olması müəyyən edilib. Sürücünün saxlanılması üçün əməliyyat-axtarış tədbirləri aparılır.



**Təhmasib Novruzov**

## Tariximizin oğurlanmasına nədən susuruq?

***Ermənilərin daha doğrusu, xristian qıpçaq türklərinin adını oğurlamış hayların tarixi saxtlaşdırmalarının çox şahidi olmuşuq. Bəlkə də, elə ona görədir ki, artıq son zamanlar hayların bu cür saxtalaşdırma oyunlarını adi hal kimi qəbul edir və səsimizi çıxarmağa belə can atmırıq. Bu bədnam qaraçı tayfasının da istədiyi elə budur. O qədər şər-böhtan və saxtalaşdırma əməlləri törədirlər ki, bizim üçün bu hal adiləşsin və biz də səsimizi çıxarmayaq.***

Hərdən düşünməyə məcbur oluruq ki, deyəsən, haylar, bu mənada istəklərinə nail olurlar. İndi mən deyim, baxın görün belə düşünməkdə haqlıyam, ya yox? Avrasiya materikində yaşayan elə bir xalq yoxdur ki, bu qaraçı etnos haqqında, onların bəşəriyyətin ən iyrənc etnosu olması haqqında fikir söyləyən mütəfəkkiri olmasın. Amma mənim ən xoşuma gələn fikir K.Marksın və onun məsləkdaşı F.Engelsin yazdıqlarıdır. Heç bir tarixi olmamasına rəğmən, bu etnosun müxtəlif millətlərin yaratdıqlarını özününküləşdirmə istəyini qeyd edən hər iki mütəfəkkir, ermənilərin, bu baxımdan, xəstə təxəyyüllü olmalarını da vurğulayır. Bizlər bunun dəfələrlə canlı şahidləriyik və bu baxımdan, ən böyük "oğurluq"lara məruz qalan Azərbaycan türkləridir desək, yanılmarıq. Elə bu əməllərinə görə hind-fars ərazilərindən Avropaya, Balkanlara, ordan Filikiyaya, Filikiyadan Ağrı dağı ətəklərinə, nəhayət, son düşərgə yeri kimi qafqazlara qovulan haylar, həmin xəstə təxəyyülündən burda yararlanmağa başladılar və nə yazıqlar ki, xristian dünyasının dəstəyi ilə bizim ərazilərimizdə istəklərinə nail olmağa başladılar. Nəticədə, dünyanı fırlana-fırlana, məhz bizim ərazilərimizdə özlərinə, tarixdə ilk dəfə olaraq, dövlət qurmağa və tarixi abidələrimizi də mənimsəməyə nail oldular. İndi isə, artıq bu ərazilərdə özlərini möhkəmləndirmiş hesab edərək, İran, Türkiyə, Gürcüstan, nəhayət, tarixən Azərbaycan xalqının ulu babalarının yurd yeri olan Dəmir Qapı Dərbənddə tarixi abidələri özününküləşdirməyə başlamışlar. Sən demə, ulu babamız olan Oğuz xaqanın hakimiyyəti altında olan, bütün dünyanın bizim ulu babamız kimi qəbul elədiyi, "Kitabi-Dədəm Qorqud" dastanlarının baş qəhrəmanı olan Dədə Qorqudun uyuduğu Dərbənd də tarixi erməni-hay yurduymuş və burda ən qədim katolik kilsəsini də onların babaları (gorlarına...) inşa ediblərmiş. O boyda Rusiyada da, Dağıstanda da bir vicdanlı adam tapılmadı ki, bunlara tarixi təhrif etməkdə mane olsun. Dərbənddəki həmin abidənin erməni-hay kilsəsi deyil, Alban məbədi olması və türklərə məxsus olması bütün dünyaya məlum olmasına rəğmən, həmin abidəni erməni katolik abidəsi kimi, məhz ermənilərin bərpa etməsinə Rusiyanın və Dağıstanın alimlərinin susması, həm də Rusiya televiziya kanallarında abidənin erməni abidəsi kimi təqdim edilməsi bizi bu cür düşünməyə vadar edir. Doğrudanmı o boyda Rusiyada vicdanı olan bir tarixçi-etnoloq yoxdur ki, tarixin belə kobud təhrifinə səsini qaldırsın? Yaxşı, onlar da vicdanlarını siyasətə qurban veriblər. Bəs bizim alimlərimiz və mütəxəssislərimiz nədən susur? Dövlət qurumlarını anlamaq çətin deyil. Həmin ərazi indiki halda, başqa dövlətin - Rusiya kimi dünya gücünün ərazisidir. Dövlət səviyyəsində bu fakta reaksiya vermək diplomatik baxımdan müsbət qarşılanmaz və qonşu dövlətin daxili (?) işinə müdaxilə kimi qarşılana bilər. Bəs alimlərimiz, ziyalılarımız, ictimai qurumlar, özünü millət təəssübkeşi kimi gözlərə dürtməyə çalışan siyasi qurumlarımız? Bu, bir həqiqətdir ki, bizlərin səsi eşidilsə də, eşidən qulaqları dartacaq kifayət qədər haypərəst dünya gücləri var. Ancaq belədə, biz gələcək zaman üçün haqqın-ədalətin bərqərar olunacağı dünyada sözümüzü keçirtmək üçün də olsa, səsimizi qaldırmalı deyilikmi? Əminəm ki, o zaman uzaqda deyil. Ya haqqa - ədalətə arxa çevirən bu dünya dağılıb məhv olacaq, ya da bir güc ortaya çıxıb (o gücün ortaya çıxacağı zaman yetişməkdədir) dünyaya ədalət gətirəcək. Bax, o zaman sözümüzün eşidilməsi üçün bu gün susmalı deyilik. Susmayaq ki, ululalarımızın yaratdıqları tarixə sahib çıxa bilək, ən azı, şəraitin yetişəcəyi zaman üçün zəmin yarada bilək.

# İcmanın məqsədi və əsas fəaliyyət istiqamətləri

**_Dağlıq Qarabağın 65 mindən çox olan azərbaycanlı əhalisinin fəallığının artırılması istiqamətində görülən işlər çox zəruri və təqdirəlayiqdir. Bu baxımdan, Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının mərkəzi qərargahının yeni binasının istifadəyə verilməsi icmanın fəaliyyətinin əlaqələndirilməsi və bu sahədə həyata keçirilən işlərin səmərəsinin daha da artırılması baxımından, mühüm əhəmiyyət kəsb edir._**

İcmanın nüfuzlu şəxslərdən - Azərbaycanın tanınmış ziyalıları, görkəmli elm və mədəniyyət xadimlərindən ibarət olan idarə heyəti, artıq öz fəaliyyət istiqamətlərini müəyyənləşdirməklə yanaşı, istər ölkə daxilində, istərsə də respublikadan kənarda beynəlxalq qurumlarla əlaqələrini genişləndirir. İctimai Birliyin fəaliyyətini daha da canlandırmaq üçün təşkilatlanma işləri sürətlənməli, Qarabağ həqiqətləri haqqında dünya ictimaiyyətinin məlumatlandırılması üçün keçirilən tədbirlərin coğrafiyası genişləndirməklə, Ermənistanın beynəlxalq aləmdə ifşa olunmasına nail olmaq lazımdır. "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin məqsədi Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə və Dağlıq Qarabağdan didərgin düşmüş əhalinin öz doğma torpaqlarına qayıtmasına kömək göstərməkdir.

Yuxarıda qeyd olunan məqsədə nail olmaq üçün birlik aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının (bundan sonra -İcma) fəallığını artırmaq;

Münaqişənin tarixi kökləri və onun həlli ilə bağlı ölkə Prezidentinin apardığı genişmiqyaslı tədbirlər barədə əhalini maarifləndirmək;

İcma üzvlərinin sosial-iqtisadi problemlərini öyrənmək və aidiyyəti dövlət orqanları vasitəsilə onların həllinə nail olmaq;

Mədəni irsin qorunması və təbliğində İcmanın imkanlarını səfərbər etmək, Dağlıq Qarabağdan olan gənclərin xaricdə təhsil almalarına şərait yaratmaq;

Mədəni-kütləvi tədbirləri, idman yarışlarını təşkil etmək, istedadlı gənclərin ölkədaxili və beynəlxalq bədii yaradıcılıq müsabiqələrində və idman yarışlarında iştirakına şərait yaratmaq;

Uşaq və gənclərə vətənpərvərlik və milli-mənəvi dəyərlərə bağlılıq hisslərinin, ekstremizm və ayrıseçkilik hallarına qarşı mübarizə ruhunun aşılanması üçün tədbirlər həyata keçirmək;

Dağlıq Qarabağ problemi ilə məşğul olan beynəlxalq təşkilat və qurumlarla aparılan danışıqlarda İcmanı təmsil etmək, beynəlxalq əlaqələri və əməkdaşlıq sahəsində fəaliyyəti müvafiq dövlət qurumları ilə uzlaşdırmaq;

Dağlıq Qarabağ azərbaycanlılarının öz doğma torpaqlarına mütləq qayıtmaq istəyini, normal sülh və əmin-amanlıq şəraitində yaşamaq niyyətində olduqlarını dünyaya bəyan etmək;

·Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğala məruz qalması və dinc azərbaycanlı əhalisinin üzləşdiyi məhrumiyyətlər barədə məlumatları, işğal altında olan ərazilərin əhalisi, təbiəti və ekoloji durumu, mədəni irsi, tarixi abidələri və s. barədə informasiyaları toplamaq, təhlil etmək, ölkə və xarici KİV-də işıqlandırmaq;

Ermənistanın təcavüzü nəticəsində, Dağlıq Qarabağdan məcburi köçkün düşmüş vətəndaşların hüquq və mənafelərini müdafiə etmək, İcma üzvlərinin pozulmuş hüquqları barədə beynəlxalq təşkilatlarda və məhkəmələrdə məsələlər qaldırmaq;

·İcma üzvlərinə hüquqi yardım göstərmək;

·Beynəlxalq rəyin Azərbaycanın xeyrinə formalaşması üçün internet resurslarından daha geniş və səmərəli istifadə etmək;

·Təhsil aldıqları ölkələrin ictimaiyyətinə Dağlıq Qarabağ barədə həqiqətləri çatdırmaq məqsədilə xaricdə oxuyan tələbələrin, xüsusilə, Qarabağ mənşəli gənclərin dərnəklərini yaratmaq;

·Münaqişə ilə bağlı beynəlxalq səviyyədə təşkil olunan tədbirlərdə Qarabağ mənşəli mütəxəssislərin və xaricdə təhsil almış gənclərin iştirakına şərait yaratmaqla, İcmanın mövqeyini dünya ictimaiyyətinə çatdırmaq;

·Əsir və itkin düşmüş vətəndaşların taleyinin aydınlaşdırılması və onların geri qaytarılması üçün müvafiq dövlət orqanları və beynəlxalq qurumlarla əməkdaşlıq etmək;

·İcmanın problemlərinin həllinə yönəlmiş beynəlxalq layihə və proqramların təşviqi və həyata keçirilməsinə nail olmaq, bu sahədə yerli və beynəlxalq qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;

·"Xalq diplomatiyası" çərçivəsində Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin erməni icması ilə işi təşkil etmək;

·Dağlıq Qarabağla bağlı kütləvi və elektron-informasiya vasitələrindəki materialları izləmək, təhlil etmək və dərhal reaksiya vermək, yerli və xarici mətbuat nümayəndələri üçün görüşlər və brifinqlər təşkil etmək;

·Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində və doğma torpaqlara qayıdışla əlaqədar proqramın hazırlanmasında iştirak etmək;

·Qanunverici orqanda İcmanın mənafeyi ilə bağlı məsələlər qaldırmaq və Milli Məclis üzvlərinin köməyi ilə xarici dövlətlərin parlamentlərində İcmanın mənafelərinə uyğun dinləmələrin, görüşlərin keçirilməsini və lobbiçiliyi təşkil etmək.

İcmanın strukturu

Azərbaycanın Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının 20 dekabr 2018-ci il tarixində keçirilmiş qurultayının qərarı ilə İcmanın yeni sədri Tural Babaşah oğlu Gəncəliyev seçilmişdir. Birliyin 8 yanvar 2019-cu il qurultayında 23 nəfərdən ibarət İdarə Heyəti seçilib. Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin İdarə Heyəti "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin fəaliyyətinin maddi-texniki təminatının yaxşılaşdırılması tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2009-cu il Sərəncamında deyilir:

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və azərbaycanlıların öz doğma yurdlarına qayıtması istiqamətində həyata keçirilən tədbirlərdə Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının rolu əhəmiyyətli dərəcədə artmaqdadır.

65 min nəfərdən çox insanı birləşdirən İcma cari ildə özünün ilk qurultayını keçirmiş, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" kimi keyfiyyətcə yeni, təşkilati baxımdan möhkəmlənmiş ictimai birliyə çevrilmiş və idarəetmə strukturlarını yaratmışdır.

Birliyin icmadaxili və beynəlxalq ictimaiyyət arasında genişmiqyaslı fəaliyyətinin daha səmərəli qurulması üçün istifadəsində olan mənzil-qərargahın əsaslı təmiri və zəruri avadanlıqlarla təchiz edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin mənzil-qərargahının əsaslı təmiri və zəruri avadanlıqlarla təchiz edilməsi məqsədilə 2 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin hesabına ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

> İcmanın nüfuzlu şəxslərdən - Azərbaycanın tanınmış ziyalıları, görkəmli elm və mədəniyyət xadimlərindən ibarət olan idarə heyəti, artıq öz fəaliyyət istiqamətlərini müəyyənləşdirməklə yanaşı, istər ölkə daxilində, istərsə də respublikadan kənarda beynəlxalq qurumlarla əlaqələrini genişləndirir. İctimai Birliyin fəaliyyətini daha da canlandırmaq üçün təşkilatlanma işləri sürətlənməli, Qarabağ həqiqətləri haqqında dünya ictimaiyyətinin məlumatlandırılması üçün keçirilən tədbirlərin coğrafiyası genişləndirməklə, Ermənistanın beynəlxalq aləmdə ifşa olunmasına nail olmaq lazımdır. "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin məqsədi Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə və Dağlıq Qarabağdan didərgin düşmüş əhalinin öz doğma torpaqlarına qayıtmasına kömək göstərməkdir

**_VAHİD ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 19 noyabr


# Nizami rayonunda YAP-ın yaradılmasının 27-ci ildönümü qeyd edilib





***Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə Nizami rayon icra Hakimiyyəti və YAP Nizami rayon təşkilatı birgə SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunda tədbir keçirib.***

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin zavodun ərazisində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi təşkilatları arasında bərabəri olmayan bir partiyadır. YAP Nizami rayon təşkilatının da partiyanın əldə etdiyi nailiyyətlərdə rol oynadığını vurğulayan S.Vəliyeva deyib: "Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı 1993-cü il sentyabrın 11-də Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun akt zalında 76 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından sürətlə genişlənir. Hazırda 143 ərazi ilk partiya təşkilatında 14 minə qədər insan birləşib".

Tədbirdə Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov çıxış edərək, vurğulayıb ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələlərin həlli üçün zamanın tələblərinə uyğun olaraq, zərurətdən yaranmış bir partiyadır. Yeni Azərbaycan Partiyası, qısa müddət ərzində, xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilati struktur yaradaraq, avanqard siyasi qüvvəyə çevrilib.

YAP Nizami rayon təşkilatı gənclər birliyinin sədri Sevinc Abdullayeva isə dövlət müstəqilliyimizin, partiya maraqlarının müdafiəsində, qorunmasında və inkişaf etdirilməsində gənclərin qarşısında duran mühüm vəzifələrdən danışıb.

Çıxışlardan sonra partiyaya qəbul edilmiş yeni üzvlərə vəsiqələr təqdim olunub, bir qrup partiya fəalı isə rayon təşkilatının ictimai-siyasi həyatında iştirakına görə fəxri fərmanla və mükafatlarla təltif edilib.

**RƏFİQƏ HÜSEYNOVA**





# "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır"

*Bu devizlə YAP Masallı rayon təşkilatı partiyanın yaranmasının 27 illiyini qeyd edib*

***Dünən YAP Masallı rayon təşkilatının tədbirlər planına uyğun olaraq Yeni Azərbaycan Partiyasının yaranmasının 27 ildönümü münasibəti ilə "Yeni Azərbaycan Partiyası dünənin, bugünün və gələcəyin partiyasıdır" devizi altında Dəfinə Liseyi, şəhər 1 saylı məktəb, Viləşçay Su Dəryaçası, Təzə Alvadı ərazi ilk partiya təşkilatlarında tədbirlər həyata keçirib.***

Tədbirlərdə Yeni Azərbaycan Partiyasının çətin şəraitdə yaradıldığını tədbir iştirakçılarının diqqətinə çatdırılıb: "Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar "Səs" qəzeti vasitəsilə Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi".

Çıxışlarda başlıca diqqət ölkəmizin əldə etdiyi uğurlara və sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərə çəkilib. Bildirilib ki, bu uğurların əsasında dövlətimizin qurucusu və memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət dayanır. Tədbirlərdə Mirqabil Hüseynov, Mahir Əliyev, Saleh Məmmədov, Taleh Əkbərov və başqaları çıxış edərək partiyanın yaranma tarixindən və xalqımız qarşısında misilsiz xidmətlərindən ətraflı bəhs ediblər.

**R.HÜSEYNOVA**

# Səbail rayon məktəbliləri "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasında iştirak ediblər

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə reallaşan "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində təhsildə, idmanda və oxuduqları tədris müəssisəsinin ictimai həyatında fərqlənən Səbail rayonunun 40 nəfər məktəblisi Gəncə-Şəmkir-Göygöl marşrutu ilə yola salınıblar.***

Səbail rayon icra hakimiyyətinin inzibati binasında təşkil olunan yolasalınma mərasimində RİH başçısı Vüqar Zeynalov, RİHB-nın müavinləri, RİHBA-nın şöbə müdirləri, məktəblilər, valideynlər və rayon ictimaiyyət nümayəndələri iştirak ediblər. Azərbaycanın Dövlət Himninin səslənməsi ilə başlanan tədbirdə çıxış edən Səbail rayon icra hakimiyyətinin başçısı Vüqar Zeynalov layihənin məqsədi ilə bağlı məlumat verib: "Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, ölkə başçısı İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır".






Tədbirdə valideynlər və şagirdlər çıxış edərək, doğma Azərbaycanın ayrı-ayrı guşələrinin rayon məktəbliləri tərəfindən daha yaxşı tanınması, o cümlədən, onların bölgələrimizin zəngin turizm potensialı, tarixi-mədəni abidələri, muzeyləri ilə tanış olmaları baxımından maarifləndirici tur-aksiyaların əhəmiyyətindən danışmış, onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda, məktəblilərlə xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, tur-aksiya iştirakçılarının Gəncə şəhərinin tarixi məkanlarına - Cavadxan Məqbərəsinə, Cümə məscidinə, Şah Abbas məscidinə, Çökək Hamama, Xan Bağına, Qədim Qala divarlarına, "İmamzadə" Kompleksinə, Cəmərd Qəssab Türbəsinə, Nizami Gəncəvi Məqbərəsinə, həmçinin, Gəncə Dövlət Filarmoniyasının yeni binasına və Gəncə Bulvarına, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri"nə, "Abidələr" Parkına, Alman Kilsəsinə, Şəmkir Aqroparkına, Göygöl rayonunda Alman kirxasına, sonuncu alman Viktor Klaynın ev-muzeyinə, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiyaları təşkil ediləcəkdir.

**RƏFİQƏ HÜSEYNOVA**


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600